10 iyun 2022 №44 (1917) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Çəmbərəkənd" parkı – paytaxtda gözoxşayan daha bir məkan



Bakının Səbail rayonu ərazisində paytaxt sakinlərinin və qonaqların sevimli məkanı olacaq daha bir gözoxşayan məkan – "Çəmbərəkənd" parkı salınıb. Prezident İlham Əliyev iyunun 8-də yeni parkda yaradılan şəraitlə tanış olub.

Yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr piyada yolları, estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib.

səh. 2

## Azərbaycan-Pakistan əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır

İyunun 9-da Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Elnur Məmmədov Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlətlərdən birinin Pakistan olduğunu diqqətə çatdırıb. İki ölkənin müxtəlif sahələrdə əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən nazir müavini Ermənistan-Azərbaycan münaqişəsi dövründə, 44 günlük Vətən müharibəsi zamanı, eləcə də postmünaqişə dövründə Pakistanın Azərbaycana siyasi dəstək göstərdiyini minnətdarlıqla vurğulayıb.

Pakistanın Azərbaycandakı səfiri Bilal Haye çıxış edərək iki ölkə münasibətlərinin ümumi tarixi, dini və mədəni köklərə malik olduğunu bildirib. Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli çərçivədə səmərəli əməkdaşlığın qurulduğunu deyən səfir münasibətlərin bundan sonra daha da inkişaf edəcəyinə inamını ifadə edib.

Tədbir iştirakçıları Azərbaycan-Pakistan diplomatik münasibətlərinin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

## Bakı yayının caz havası

"Bakı Yay Caz Günləri" (Baku Summer Jazz Days) festivalı pandemiya səbəbindən yaranmış ikiillik fasilədən sonra fəaliyyətini bərpa edir.

6-7 iyul tarixlərində caz musiqisi pərəstişkarları üçün növbəti sənət bayramı – 4-cü "Bakı Yay Caz Günləri" keçiriləcək.

Əvvəlki festivalların iştirakçılarının coğrafiyasına İsveçrə, Fransa, İsrail, Gürcüstan, ABŞ, Türkiyə, Macarıstan, Rusiya kimi ölkələr daxil idi. Bu layihə çərçivəsində Avichai Kohen, Erik Eruffaz, Jacky Terrasson, Stephane Belmondo, Nik West kimi bir çox məşhur musiqiçilər Bakıda ilk dəfə çıxış ediblər.

davamı səh. 2-də

## Rusiyada "Azərbaycanın rəngli yuxuları"



A.N.Radişşev adına Saratov Dövlət Rəssamlıq Muzeyində XX əsr Azərbaycan rəssamlarının yaradıcılığına həsr olunmuş "Azərbaycanın rəngli yuxuları" adlı sərgi açılıb.

Sərgidə Radişşev muzeyinin, "Mərcani" Fondunun və Mixail Arefyevin kolleksiyasına daxil olan rəsm əsərləri, qrafika və xalçalar nümayiş olunur. Ekspozisiyaya 35 azərbaycanlı rəssamın, o cümlədən Səttar Bəhlulzadə, Nadir Əbdürrəhmanov, Mikayıl Abdullayev, Tofiq Cavadov, Mirnadir Zeynalov, Toğrul Nərimanbəyov, Rasim Babayev, Qəyyur Yunus və digərlərinin 100-dən çox əsəri daxil edilib.

Sərgi avqustun 31-dək davam edəcək.

# Avropanın musiqi beşiyində Fikrət Əmirovun yubileyi

### Vyanadakı "Motsart zalı"nda möhtəşəm konsert proqramı

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə bu il dünya şöhrətli bəstəkar, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı Fikrət Əmirovun anadan olmasının 100 illik yubileyi ölkəmizdə və onun hüdudlarından kənarda təntənəli şəkildə qeyd olunur.



Bəstəkarın 100 illiyinin UNESCO-nun 2022-2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilməsi Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda yüksək qiymət verilməsinin təzahürüdür.

Fikrət Əmirovun yubileyinə həsr olunmuş növbəti tədbir dünya klassik musiqisinin beşiyi sayılan Vyana şəhərində keçirilib. Şəhərin mərkəzində yerləşən "Konzerthaus"da, Avstriyanın ən mükəmməl akustikaya malik "Motsart zalı"nda keçirilən konsert Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunub.

Əməkdar artist, dirijor Fuad İbrahimovun rəhbərliyi ilə Vyana Akademik Orkestri Fikrət Əmirovun əsərlərindən ibarət proqramla çıxış edib. Konsertdə bəstəkarın balet, simfoniya, konsert və romans kimi rəngarəng əsərlərinə müraciət olunub. Proqramda ilk olaraq "1001 gecə" baletindən "Şəhrizadın bayramı" ifa edilib. Gənc ifaçı Mərziyyə Hüseynovanın səsləndirdiyi "Azərbaycan elləri" romansı isə xüsusi maraqla qarşılanıb.

Fikrət Əmirovun yaradıcılığında simfonik əsərlərin əhəmiyyətini nəzərə alaraq, proqramda bəstəkarın dahi Azərbaycan şairi Nizaminin xatirəsinə ithaf etdiyi simli orkestr üçün "Nizami" simfoniyası səsləndirilib. Əsər tamaşaçıların sürəkli alqışlarına səbəb olub.

"Fortepiano və orkestr üçün ərəb mövzuları əsasında konsert"in ifasında solist kimi Azərbaycanın Xalq artisti Yeganə Axundova (fortepiano) çıxış edib. Əsərin musiqi dili, melodik çalarları, milli musiqi intonasiyalarının müasir musiqi texnikaları ilə mükəmməl vəhdəti, solist və orkestrin ifası uğurlu musiqili axşamın zirvə nöqtəsini təşkil edib.

Bədii rəhbər və dirijor Fuad İbrahimovun dahi bəstəkarın repertuarından seçdiyi əsərlər və orkestr ilə mövzulara peşəkar yanaşması bir daha Avropa dinləyicilərinə Azərbaycan klassik musiqisinin özünəməxsus ifadə zənginliyi, texniki və bədii keyfiyyətlərini nümayiş etdirib.

## Müstəqillik tariximizin otuz ili iki cilddə

İyunun 8-də Heydər Əliyev Mərkəzində Bakı Dövlət Universitetinin (BDU) nəşr etdirdiyi ikicildlik "Azərbaycan Respublikasının tarixi (1991-2021-ci illər)" kitabının təqdimat mərasimi keçirilib.




Tədbirə moderatorluq edən akademik Rafael Hüseynov bildirib ki, təqdimat mərasiminin Heydər Əliyev Mərkəzində keçirilməsi rəmzi məna daşıyır. Bir xalqın tarixində onun istiqlalı ən mühüm məsələdir. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Cümhuriyyətin qurucuları çox istəyirdilər ki, istiqlalımız əbədi olsun. Cümhuriyyət hökuməti cəmi 23 il yaşadı. Azərbaycan xalqı 70 il müstəqillik həsrəti ilə yaşadı. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Lakin Azərbaycanın dövlət müstəqilliyinin əbədi olması 1993-cü ildə respublikanın siyasi rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində mümkün oldu. Rafael Hüseynov Azərbaycanın bu gün dünyada nüfuz qazanmasında Prezident İlham Əliyevin fəaliyyətini xüsusi vurğulayıb.

Akademik təqdimatı keçirilən kitabın ərsəyə gəlməsini Bakı Dövlət Universitetinin böyük uğuru kimi dəyərləndirib.

davamı səh. 3-də

## Formula 1 həyəcanı başlanır

### Sürət peşəkarları Qız qalasının başına 51 dəfə dolanacaqlar

İyunun 10-da Bakıda Formula 1 Azərbaycan Qran-prisi başlanır. Paytaxtımızda altıncı dəfə keçirilən yarışın ilk gününə sərbəst yürüşlər və bolidlərin trek sınağı planlaşdırılıb.

Mövsümün 8-ci sınağında saat 15:00-da Formula 1 pilotları start xəttinə çıxacaqlar. Bu yarış bitdikdən sonra yenidən "əvəzedicilər" mübarizəyə başlayacaqlar. Onlar növbəti gün üçün sıralarını müəyyənləşdirəcəklər. Günün son yarışında Formula 1 iştirakçıları ikinci sərbəst yürüşlərini keçirəcəklər.

İyunun 11-i və 12-si Formula 1 Azərbaycan Qran-prisi üçün əsas günlərdir. Şənbə günü üçüncü sərbəst yürüş və sıralama turu planlaşdırılıb.

İyunun 12-də pilotların paradı, açılış mərasimi olacaq. Saat 15:00-da Qran-prinin startı veriləcək. Təxminən 2 saatlıq yarışın ardınca mərhələ qaliblərinin mükafatlandırılması nəzərdə tutulub.




Bu mərhələyə də, əvvəlki yarış kimi, 10 komandanın heyətində 20 pilot qatılacaq. Bakı trekində "Red Bull"un heyətində Serxio Peres, Maks Ferstappen, "Ferrari"nin heyətində Şarl Lekler, Karlos Sayns, "Mercedes"in heyətində Luis Hamilton, Corc Rassell, "MakLaren"in heyətində Daniel Rikkardo, Lando Norris, "Alfa Romeo"nun heyətində Çjou Quanyu, Valtteri Bottas, "Alpin"in heyətində Fernando Alonso, Esteban Okon, "Alfa Tauri"nin heyətində Pyerr Qasli, Yuki Tsunoda, "Haas"ın heyətində Kevin Maqnussen, Mik Şumaxer, "Aston Martin"in heyətində Sebastyan Fettel, Lens Stroll, "Wilyams"ın heyətində Aleksander Albon və Nikolas Latifi bolidlərin sürətini yoxlayacaq.

Yarışın start və finiş xətti Azadlıq meydanında olacaq. Bolidlər Qız qalasının yanı, İçərişəhər və Azneft dairəsindən keçməklə saat əqrəbinin əksi istiqamətində 51 dövrə vuracaqlar.

Qeyd edək ki, martın 20-də Bəhreyndə start götürən Formula 1 mövsümündə 7 mərhələdən sonra pilotların mübarizəsində 125 xalla "Red Bull"dan Maks Ferstappen liderdir. Onu "Ferrari"nin pilotu Şarl Lekler (116 xal) və "Red Bull"un digər təmsilçisi Serxio Peres (110) izləyir.

Komanda hesabında isə "Red Bull" 235 xalla birincidir. "Ferrari" 199 xalla ikinci, "Mercedes" 134 xalla üçüncüdür.

## Dövlət Film Fondunda Amaliya Pənahovanın şəxsi arxivi yaradılıb

İyunun 15-də görkəmli teatr və kino aktrisası, Dövlət mükafatı laureatı, Xalq artisti Amaliya Pənahovanın (1945-2018) anadan olmasının 78-ci ildönümü tamam olacaq.

Bu ərəfədə Azərbaycan Dövlət Film Fondunda aktrisanın şəxsi arxiv fondu yaradılıb. Fonda sənətkarın 80 nadir fotoşəkli, kitabları, şəxsi sənədləri, haqqında materiallar dərc olunmuş qəzet və jurnallar daxil edilib. Materiallar aktrisanın qızı Aynur Muxtarova tərəfindən təqdim olunub.

Bu günlərdə Dövlət Film Fondunda sənətkarın şəxsi arxiv materialları ilə tanış oldum.

Qarşımda üç səliqəli şəkildə yığılmış ağ-qara haşiyəli qutu var. Birinci qutu şəxsi sənədlərdən ibarətdir. Bir sənətkar ömrünün müxtəlif mərhələləri, bir dövrün ab-havası. Amaliya Pənahovanın doğum şəhadətnaməsindən tutmuş elmlər namizədi elmi dərəcəsi, professor elmi adı, fəxri adlarının, "Şöhrət" və "Şərəf" ordenlərinin vəsiqələrinə, müxtəlif yaradıcı təşkilatların təqdim etdiyi mükafatlara qədər...

davamı səh. 3-də



Türk dünyasını birləşdirən ədəbi körpü



səh. 2

London Royal Musiqi Akademiyasının professoru BMA-da ustad dərsi keçib

səh. 2




Rok festivalının qalagecəsi

səh. 2

№44 (1917)
10 iyun 2022
www.medeniyyet.az

# “Çəmbərəkənd” parkı – paytaxtda gözoxşayan daha bir məkan

Bakının Səbail rayonu ərazisində paytaxt sakinlərinin və qonaqların sevimli məkanı olacaq daha bir gözoxşayan məkan – ”Çəmbərəkənd” parkı salınıb. Prezident İlham Əliyev iyunun 8-də yeni parkda yaradılan şəraitlə tanış olub.





Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov parkda görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Prezident İlham Əliyev yeni parkdan paytaxtın mənzərəsini seyr edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb. Dövlətimizin başçısının təşəbbüsü ilə paytaxtın Səbail rayonunda salınan “Çəmbərəkənd” parkı da onlardan biridir. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.

## Musiqişünas Zemfira Səfərova “Şöhrət” ordeni ilə təltif edilib

Tanınmış musiqişünas alim, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, akademik Zemfira Yusif qızı Səfərova ”Şöhrət” ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev iyunun 9-da bununla bağlı sərəncam imzalayıb. Zemfira Səfərova Azərbaycan musiqişünaslığının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, iyunun 10-da akademik Zemfira Səfərovanın 85 yaşı tamam olur.

Fundamental tədqiqatların müəllifi olan alim Orta əsr risalələrini mətnşünaslıq cəhətdən hazırlayaraq nəşr etdirib, “Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər)” kitabını, qədim musiqi terminləri lüğətini tərtib edib.

Zemfira Səfərovanı yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

## Türkmənistanla diplomatik əlaqələrin 30 illiyi münasibətilə

İyunun 9-da Azərbaycan Respublikası və Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olub. Bu münasibətlə Xarici İşlər Nazirliyində tədbir və sərgi keçirilib.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Xələf Xələfov 30 il ərzində iki ölkənin böyük inkişaf yolu keçdiyini qeyd edib. Azərbaycan və Türkmənistan arasında strateji tərəfdaşlıq xarakterli münasibətlərin mövcudluğunu məmnunluqla qeyd edən nazir müavini Xələf Xələfov iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair geniş hüquqi bazanın əhəmiyyətini vurğulayıb.

Türkmənistanın Azərbaycan Respublikasındakı səfiri Mekan İşanquliyev iki ölkəni tarixi, mədəni bağların, dəyərlərin birləşdirdiyini bildirib. Hazırda Türkmənistan və Azərbaycan münasibətlərinin yeni məzmun kəsb etdiyini bildirən səfir, bu münasibətlərin siyasi, iqtisadi, həmçinin mədəni və humanitar sahələrdə özünü göstərdiyini ifadə edib. Səfir iki ölkənin iştirakı ilə həyata keçirilən regional və beynəlxalq əhəmiyyətli irimiqyaslı layihələrin Türkmənistan və Azərbaycan əməkdaşlığının yüksək sürətlə inkişaf etdiyinin göstəricisi olduğunu qeyd edib.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və Türkmənistan arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

## Müslüm Maqomayevin yubileyinə həsr olunmuş konsert

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə iyunun 7-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında dünya şöhrətli bəstəkar və müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevin anadan olmasının 80 illiyi münasibətilə ”Ey əziz anam, Azərbaycan” adlı konsert keçirilib.



Konsertdə Müslüm Maqomayev adına 26 saylı onbirillik Musiqi məktəbinin heyəti çıxış edib.

Orxan Həşimovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin müşayiət etdiyi proqramda məktəbin xoru, “Buta” qanunçalanlar ansamblı, “Fantaziya” skripkaçılar ansamblı, eləcə də təhsil ocağının şagirdləri və müəllimləri Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini səsləndiriblər.

Konsertdə Müslüm Maqomayevin repertuarından mahnılar ifa olunub və onun həyatından bəhs edilən videoçarx nümayiş etdirilib.

Məktəbin birləşmiş xorunun ifasında L.Mehdiyevanın Müslüm Maqomayevə həsr etdiyi “İthaf” əsəri böyük sənətkara ehtiramın təcəssümü kimi tamaşaçıların yaddaşında iz qoyub.

## Ayaz Salayevin “Torpaq” filminin premyerası

İyunun 14-də Nizami Kino Mərkəzində tanınmış kinoşünas və rejissor, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Ayaz Salayevin ”Torpaq” filminin premyerası olacaq.

Təqdimat Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı və “Salnaməfilm” studiyasının təşkilatçılığı ilə keçiriləcək.

Tammetrajlı sənədli ekran əsəri 1988-ci ildə soydaşlarımızın Ermənistan SSR-dən – öz tarixi dədə-baba torpaqları olan Qərbi Azərbaycandan deportasiyasından bəhs edir.

# Türk dünyasını birləşdirən ədəbi körpü

### Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Avstriyada yeni layihə həyata keçirir

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycanın Avstriyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə Vyanada ”Türk dünyasını birləşdirən ədəbi körpü” adlı silsilə tədbirlərə start verilib.





İlk tədbir kimi iyunun 7-də Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən almanca nəşr olunmuş “Azərbaycan qadın şairlərinin poeziya antologiyası”nın təqdimatı olub. Mərasimdə Vyanada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, eləcə də Avstriya ictimaiyyətinin və Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan AMM-in rəhbəri Leyla Qasımova Azərbaycan da daxil olmaqla, Türk dünyasında qadınların cəmiyyətdəki rolundan söz açıb, müsəlman Şərqində qadınlara seçki hüququ tanıyan ilk ölkənin Azərbaycan olduğunu diqqətə çatdırıb.

Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli iki ölkə arasında mədəni əlaqələrə toxunaraq türk xalqlarının qədim dəyərlərinin Avropada təbliğinin vacibliyindən söz açıb. Türk dünyasının zəngin mədəniyyətinin, tarixinin, irsinin beynəlxalq miqyasda tanıdılması istiqamətində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini yüksək qiymətləndirən səfir Avstriyada təşkil olunan tədbirin əhəmiyyətini qeyd edib.

Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bildirib ki, türk xalqlarının tarixində hər zaman böyük şəxsiyyətlər sırasında qadınların xüsusi yerə sahib olduğunu, onların mənsub olduqları ölkənin və xalqın taleyində böyük rol oynadığını görmək mümkündür: “Bu baxımdan, mən müasir zəmanəyə nəzər salarkən Türk dünyasının öndə olan qadınlarından Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətlərini qeyd etmək istərdim. Onun rəhbərliyi altında həyata keçirilən layihələr, onun təşəbbüsləri və xeyirxah əməlləri həm ölkənin daxilində, eyni zamanda beynəlxalq aləmdə də mühüm nüfuz qazanıb”.

Fondun prezidenti “Azərbaycan qadın şairlərinin poeziya antologiyası” haqqında məlumat verərək bildirib ki, kitab səkkiz yüz illik bir dövrün ədəbi ruhunu özündə daşıyır: “Burada toplanan şeirlər XII əsrdən XX əsrədək Azərbaycan ərazisində yaşamış görkəmli şairələrin yaradıcılığına işıq tutur. Onlar ölkənin müxtəlif guşələrində, o cümlədən Azərbaycanın ayrılmaz parçası olan Qarabağda, mədəniyyət beşiyi olan Şuşada yaşamış şairələrdir. Onlardan birinin – məşhur şairə və ictimai xadim Xan qızı Xurşidbanu Natəvanın bu il 190 illik yubileyi tamam olur”.

G.Əfəndiyeva tədbirin təşkilində əməyi keçən bütün tərəfdaşlara, eləcə də yaradıcı heyətə təşəkkürünü çatdırıb.

Antologiyanın alman dilində nəşrinin ərsəyə gəlməsində önəmli rolu olan araşdırmaçı-yazar Orxan Aras çıxışında hələ Orta əsrlərdə Azərbaycan şairələrinin dövrünün ziyalı, tərəqqipərvər və açıqfikirli insanlar olduqlarını vurğulayıb.

Daha sonra Azərbaycan qadın şairələri haqqında sənədli film nümayiş etdirilib. Yazar və jurnalistlər Ülviyyə Heydərova və Zəhra Quliyevanın müəllifləri olduqları sənədli filmdə Azərbaycan tarixinə nəzər salınır, müxtəlif dövrlərdə yaşamış şairələrin həyat və yaradıcılığından bəhs olunur.

Tədbir musiqili bədii proqramla davam edib. Xalq artisti Mehriban Zəki və avstriyalı aktrisa Sebine Petzl tərəfindən antologiyaya daxil olan şeirlər səsləndirilib, Avstriyada yaşayan azərbaycanlı pianoçu Abuzər Manafzadə və Karen Danger-Manafzadənin ifasında şairələrin əsərlərinə bəstələnmiş mahnılar tamaşaçılara təqdim olunub.

Qeyd edək ki, antologiyada Məhsəti Gəncəvi, Ağabəyim ağa, Xurşidbanu Natəvan, Heyran xanım, Ümgülsüm, Nigar Rəfibəyli, Mirvarid Dilbazi və başqa tanınmış azərbaycanlı şairələrin şeirləri toplanıb.

# Bakı yayının caz havası

### 4-cü “Bakı Yay Caz Günləri” keçiriləcək

*əvvəli səh. 1-də*

“Bakı Yay Caz Günləri”nin yaddaqalan konsertlərindən biri – Oleq Lundstremin caz orkestrinin Dənizkənarı parkda çıxışı təkcə peşəkarların deyil, həm də bu musiqini ilk dəfə dinləyənlərin diqqətini cəlb etmişdi. Konsertlərin ictimaiyyət üçün əlçatan olması və bununla da Bakı caz ənənələrinin geniş tamaşaçı auditoriyası üçün canlandırılması festivalın əsas məqsədidir.

Bu il konsertlər Heydər Əliyev Mərkəzinin parkında açıq havada keçiriləcək. Giriş sərbəstdir.

İyulun 6-da festivalı amerikalı caz pianoçusu və bəstəkarı Emmet Kohen öz triosu ilə açacaq. Trionun rəhbəri – Amerika Piano Assosiasiyasının, 2019-cu il “Amerika Pianoçuları Mükafatı”nın sahibi Emmet Kohen eyni zamanda pedaqoqdur və bütün yaş qruplarından olan tələbələrinə dinləyici ilə ünsiyyət sənətini öyrədir. O, Nyuport, Monterey və Rotterdamda keçirilən caz festivallarında, eləcə də Nyu-Yorkdakı Rose Hall və Vaşinqtondakı Kennedi Mərkəzi kimi bir çox məşhur musiqi məkanlarında çıxış edib.

İyulun 7-də proqram məşhur İsveç-Türkiyə saksofonçusu, bəstəkar, aktyor, prodüser İlhan Erşahinin kvartetinin çıxışı ilə davam edəcək. Stokholmda böyüyən və 1990-cı ildən Nyu-Yorkda yaşayan musiqiçi Wallace Rooney, Joe Lovano, Jeff Williams, Cameron Brown, Viktor Lewis kimi ifaçılarla birlikdə çıxış edib. O, Bakıda Türkiyədən olan cazmenlərin çıxış edəcəyi “İstanbul Sessions” layihəsini təqdim edəcək.

Hər iki gün festival səhnəsində həmçinin Azərbaycanın caz qrupları yer alacaq.

Diana Hacıyeva müasir Azərbaycan caz səhnəsinin istedadlı nümayəndələrindən biridir. Müğənni, musiqi prodüseri və bəstəçi kimi fəaliyyət göstərərək müxtəlif heyətlərlə çıxış edir. 2012-ci ildən “DiHaj” adı altında çıxış edən musiqi heyətinin prodüseridir.

Firudin Həmidov gənc nəslə aid olan caz trumpet ifaçısı və bəndlideridir. Hazırda Azərbaycanın ən tanınmış gənc heyətlərindən biri olan “H3 Collective”in yaradıcısı və rəhbəridir. “H3 Collective” və F.Həmidov əsasən eysid-caz, fank-caz, hip-hop və digər müasir caz istiqamətlərində çalışır.




Festival Heydər Əliyev Mərkəzi, Azərbaycan Mədəniyyət Nazirliyi və “Premier LTD” şirkətinin təşkilatçılığı ilə həyata keçiriləcək.

## London Musiqi Akademiyasının professoru BMA-da ustad dərsi keçib

London Royal Musiqi Akademiyasının professoru, truba ifaçısı Kristian Riçards Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələrinə ustad dərsi keçib.

Ustad dərsində BMA-nın tələbələri Oruc Orucov, Səid Rəsulov, Fərid Hacıyev, Timur Xındırıstanskiy və Faiq Əlizadə Çarı Nurımovun “Truba üçün konsert”, Daniil Qinetsinskinin “Yumoreska”, “Prelüdiya”, Alfred Şnitkenin “Köhnə stildə süita”, Astor Piazzolanın “El Viaje”, Vyaçeslav Şelokovun “Truba üçün konsert”, Anton Arenskinin “Konsert” valsı, Cüzeppe Tartininin “Truba üçün konsert” (II, III hissələr) əsərləri üzərində işləyiblər.



Professor Kristian Riçardsın metodikası seçilmiş əsərdən və tələbələrin ifaçılıq qabiliyyətlərindən asılı olaraq hər bir tələbəyə fərdi yanaşması ilə xarakterizə olunur. Ustad dərsində K.Riçards ifa zamanı nəfəsi düzgün idarə etməyin üsulları haqqında danışıb və tövsiyələrini verib.

## Rok festivalının qala-gecəsi

Azərbaycanda ilk dəfə keçirilən irimiqyaslı Rok festivalının qala-gecəsi iyun ayının 11-də Heydər Əliyev Sarayının səhnəsində baş tutacaq.

Sarayın mətbuat katibi Aytac Bağırlının sözlərinə görə, festival çərçivəsində Azərbaycan rok musiqiçilərinin bəstələrindən ibarət əsərlər səslənəcək. Musiqi axşamında Passion, Free From Four, Dədə Baba, Orxan Efendi, Qara Dərviş, Groove IN spires, Sadnos, CODA və Evil Decay kimi qruplar çıxış edəcək. Qala-gecənin quruluşçu rejissoru Əməkdar artist İnarə Babayevadır. Festivalın əsas məqsədi Azərbaycanda rok janrının tanıdılması, təbliği və inkişafıdır.

# Müstəqillik tariximizin otuz ili iki cilddə

## “Tarix yalnız xronologiya üçün deyil, həm də öyrənib ibrət almaq üçündür”

əvvəli səh. 1-də

Tədbirdə çıxış edən BDU-nun rektoru, layihənin rəhbəri və kitabın elmi məsləhətçisi Elçin Babayev müstəqil Azərbaycan Respublikasının tarixini özündə sistemli, əhatəli, etibarlı tarixi mənbələr əsasında əks etdirən nəşrin elmi ictimaiyyət, tarixçilər, politoloqlar tərəfindən rəğbətlə qarşılanacağına əminliyini bildirib.

Rektor vurğulayıb ki, ötən əsrin 90-cı illərində əldə edilən dövlət müstəqilliyi hər birimiz üçün ən böyük sərvətdir. Azərbaycan dövləti xüsusilə müstəqilliyin ilk illərində kifayət qədər çətin və keşməkeşli mərhələlərdən keçərək, dayanıqlı iqtisadi inkişaf yoluna qədəm qoyub, iri regional layihələrin təşəbbüskarına, əsas icraçısına çevrilib. Vətən müharibəsində qazanılan tarixi Qələbə ilə ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etməsi Azərbaycanın regionda və dünyada nüfuzunu daha da yüksəldib.

BDU-nun rektoru daha sonra deyib: “Ulu öndər Heydər Əliyev hər zaman tariximizin obyektiv, etibarlı mənbələr əsasında, ciddi tarixşünaslar tərəfindən yazılmasını vacib hesab edirdi.






Müdrik siyasətçi bu istiqamətdə elm və təhsil ictimaiyyətinin qarşısında mühüm vəzifələr qoyub, prioritet hədəflər müəyyənləşdirmişdi. Ümid edirik ki, iki cilddə nəşr olunan “Azərbaycan Respublikasının tarixi (1991-2021)” kitabı həmin vəzifələrin yerinə yetirilməsinə böyük töhfələr verəcək. Kitabın Qarabağ Zəfərindən sonra ərsəyə gəlməsi olduqca əlamətdar və qürurvericidir. Azərbaycan tarixinin son 30 illik dövrünə, dövlətimizin və xalqımızın müstəqillik və azadlıq uğrunda keçdiyi yola, müasir dövrdə misli görünməmiş sürətli inkişafına, xüsusilə Qarabağ Zəfəri və onun siyasi nəticələrinə müfəssəl şəkildə toxunan bu kitab tariximizin daha dolğun və ətraflı əks etdirilməsi istiqamətində atılmış ilk addımlardan biridir. Xoşbəxtik ki, BDU-nun nəşr etdiyi bu kitab tariximizin yüksəliş və zəfər mərhələsi ilə yekunlaşır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yüksəliş və Zəfər tariximiz isə davam edir...”.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov diqqətə çatdırıb ki, müasir Azərbaycanın tarixi vətəndaşların, xüsusən gənclərin formalaşmasında mühüm əhəmiyyətə malikdir. Bir ildən bir qədər çoxdur ki, Azərbaycan tarixi Qələbə qazanıb, torpaqlarını işğaldan azad edib. Bütün bunların kitabda yer alması, gənclərin bunları öyrənməsi vacibdir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun kafedra müdiri Ziyafət Əsgərov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, BDU-nun kafedra müdiri, professor Hicran Hüseynova, Milli Məclisin deputatı, BDU-nun kafedra müdiri, akademik Nizami Cəfərov, Xarici İşlər Nazirliyi Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı kitabın əhəmiyyətindən bəhs ediblər. Nəşrin xarici dillərə tərcümə olunmasının, təhsil müəssisələrində tədris edilməsinin vacibliyi vurğulanıb.

Tədbirin sonunda çıxış edən kitabın müəllifi – tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, millət vəkili Musa Qasımlı nəşrin ərsəyə gəlməsində dəstəyə görə BDU rəhbərliyinə təşəkkür edib. Bildirib ki, tarix yalnız xronologiya üçün deyil, həm də öyrənib ibrət almaq üçündür.

# Əbədiyaşar musiqilər müəllifi

## Qara Qarayevin vəfatının 40 illiyinə ithaf olunan növbəti musiqi axşamı




Bu il dünya şöhrətli Azərbaycan bəstəkarı, pedaqoq, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Qara Qarayevin (1918-1982) əbədiyyətə qovuşmasının (13 may) 40-cı ildönümüdür. Bu münasibətlə müxtəlif tədbirlər keçirilir, dahi musiqiçinin yaradıcılıq salnaməsi vərəqlənir, onun Azərbaycan musiqi mədəniyyətinin inkişafına verdiyi töhfələr minnətdarlıqla yada salınır.

İyunun 7-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Qara Qarayevin Ev-Muzeyində gerçəkləşən konsert də görkəmli bəstəkarın xatirəsinə ehtiramın ifadəsi idi.

Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxış edərək Qara Qarayevin əbədiyaşar irs yaratdığını söylədi. Bildirdi ki, dahi bəstəkar XX əsrin bəşəriyyətə bəxş etdiyi böyük şəxsiyyətlərdən biridir. O, musiqimizdə gələcəyə yeni yollar açan novator sənətkar olub. Parlaq musiqisi, çoxşaxəli fəaliyyəti və alovlu publisistikası Azərbaycan, eləcə də dünya musiqisinin inkişafına təsir göstərib.




Qara Qarayevin Ev-Muzeyinin direktoru, sənətkarın qızı Züleyxa Bağırova-Qarayeva çıxışında bəstəkarın musiqinin müxtəlif janrlarında bir-birindən dəyərli, rəngarəng əsərlər yaratmasından danışdı. Diqqətə çatdırdı ki, Qara Qarayev görkəmli bəstəkar olmaqla bərabər, həm də zəngin dünyagörüşünə, ensiklopedik biliyə, fəlsəfi ümumiləşdirmələrə malik alim, mütəfəkkir idi. O, dünya musiqi elminin son nailiyyətlərini böyük dəqiqliklə öyrənmiş, ədəbiyyat və teatrın da bilicisinə çevrilmişdi.

Çıxışlardan sonra konsert proqramı təqdim edildi.

Xalq artisti Ülviyyə Hacıbəyova (fortepiano) Qara Qarayevin “6 uşaq pyesi”, Əməkdar artist Fəridə Məmmədova, beynəlxalq müsabiqələr laureatları Mahir Tağızadə (vokal) bəstəkarın “Çılğın qaskoniyalı” müziklindən parçalar, beynəlxalq müsabiqələr laureatı Səbinə Quliyeva (violin) və Bakı Musiqi Akademiyasının dosenti Nərgiz Salmanlı (fortepiano) “Adajio” əsərini ifa etdilər.

Sonra Ülviyyə Hacıbəyova Q.Qarayev sənət məktəbinin yetirmələrindən İsmayıl Hacıbəyovun “Albomdan səhifələr”, Fərəc Qarayevin “Cənab Bi-Layn – ekssentrik” və digər əsərləri səsləndirdi.

Bütün ifalar alqışlarla qarşılandı.

Çıxış və ifalar muzeyin kolleksiyası əsasında hazırlanmış Qara Qarayevin həyat və yaradıcılıq yolunu əks etdirən slayd-şou ilə müşayiət olundu.

**Savalan Fərəcov**

# Portuqaliya Azərbaycanla daha sıx əlaqələr qurmaq istəyir



Portuqaliya Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır. Bu fikri iyunun 6-da Moskvada Azərbaycanın Rusiya Federasiyasında səfiri Polad Bülbüloğlu ilə görüşdə Portuqaliyanın RF-də yeni səfiri xanım Madalena Fişer vurğulayıb.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın önəmini vurğulayan xanım səfir ölkələrimizin BMT çərçivəsində irəli sürdükləri namizədliklərə qarşılıqlı əsasda dəstəyin verilməsinin əhəmiyyət kəsb etdiyini deyib.

Polad Bülbüloğlu həmkarını təyinatı münasibətilə təbrik edib, uğurlar arzulayıb. Polad Bülbüloğlu həmçinin Rusiya Federasiyasında akkreditə edilmiş diplomatik korpusun duayeni qismində fəaliyyəti, Moskvada təşkil edilən mədəni tədbirlər barədə söz açıb.

Azərbaycan-Portuqaliya münasibətlərindən bəhs edən Polad Bülbüloğlu ikitərəfli əlaqələrin, xüsusilə turizm, mədəniyyət və təhsil sahələrinnin inkişafı üçün geniş imkanların olduğunu deyib.

Azərbaycan səfiri həmkarına Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, uzun illər aparılmış danışıqlar prosesi, BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi və digər beynəlxalq təşkilatlarda qəbul olunmuş sənədlər haqqında danışaraq 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun torpaqlarımızı işğaldan azad etdiyini diqqətə çatdırıb. Postmünaqişə dövrü və azad olunmuş ərazilərimizdə sürətlə aparılan bərpa və yenidənqurma işləri barədə də məlumat verilib.

Sonda portuqaliyalı diplomata kəlağayı, Heydər Əliyev Fondu tərəfindən çap edilmiş “Zəfər salnaməsi” və “Qarabağ işğaldan əvvəl və sonra” kitabları hədiyyə edilib.

# Sabirin 160 illiyi adını daşıyan kitabxanada qeyd edilib

Böyük satirik şair, maarifpərvər ziyalı Mirzə Ələkbər Sabirin (1862-1911) anadan olmasının 160 illiyi münasibətilə şairin adını daşıyan Bakı şəhər kütləvi kitabxanasında tədbir keçirilib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsindən bildirilib ki, tədbirdə kitabxananın direktoru Aliyə Kərimova qonaqları salamlayaraq əvvəlcə Sabir satiraları əsasında hazırlanan slaydı iştirakçılara təqdim edib.

Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işçiləri Zarema Abdullayeva və Rahilə Sadıqova muzeyin “Sabir guşəsi”ndə nümayiş olunan eksponatlardan danışıb və təqdim etdiyi slaydla muzeyə virtual ekskursiya təşkil ediblər.

Cəlil Məmmədquluzadənin Ev-Muzeyinin böyük elmi işçisi Yeganə Məmmədova çıxış edərək şairin “Molla Nəsrəddin” jurnalındakı fəaliyyəti və Mirzə Cəlillə dostluq münasibətlərindən danışıb.

Gənc satirik şair Əlibəy Məmmədli Sabirin “Kəndli və axund” dialoq üslublu satirasını obrazlı səsləndirib. O qeyd edib ki, M.Ə.Sabirin nə dediyini düzgün anlamaq və anlatmaq üçün onun əsərlərini yeni nəsillərə daha çox oxutmaq, həmçinin oxuduqlarını doğru izah etmək lazımdır.

Tədbirdə şairin nəvəsi, Mirzə Ələkbər Sabir Fondunun təsisçisi Sevda Tahirli çıxış edərək bildirib ki, Sabiri yaşadan xalqın, millətin sevgisi və ona verdiyi dəyəridir.

# Azərbaycan və Gürcüstan kuklaçılarının əməkdaşlığı üçün zəmin

Xəbər verdiyimiz kimi, Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının heyəti 1-5 iyun tarixində Gürcüstanda səfərdə olub. Tbilisidə beynəlxalq teatr festivalında iştirak məqsədilə reallaşan səfər qarşılıqlı yaradıcılıq əlaqələrinin perspektivləri baxımından da məhsuldar olub.

Səfər zamanı Gürcüstan Dövlət Kukla Teatrları Birliyi ilə Azərbaycan Dövlət Kukla Teatrı arasında əməkdaşlıq memorandumu imzalanıb. Birliyin bədii rəhbəri, Gürcüstanın tanınmış teatr mütəxəssisi Nikoloz Sabaşvili ilə Azərbaycan Dövlət Kukla Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi, Beynəlxalq Kukla Teatrları İttifaqı – UNİMA-nın Milli Mərkəzinin rəhbəri Rəşad Əhmədzadənin imzaladığı sənəd işbirliyi üçün mühüm zəmin yaradır.

Sənəddə müştərək layihələrin həyata keçirilməsi, təcrübə mübadiləsi, ustad dərslərinin təşkili, spesifik istiqamətlərdə qısamüddətli təlimlərin keçirilməsi və s. məsələlər nəzərdə tutulub.

# Dövlət Film Fondunda Amaliya Pənahovanın şəxsi arxivi yaradılıb

əvvəli səh. 1-də

Hər bir sənəd bir yaradıcı qadın taleyinin, sənət uğurlarının nişanəsidir.

İkinci qutu da maraqlı sənədlərlə zəngindir. Burada aktrisa haqqında yazılan qəzet və jurnal məqalələri, saytlarda dərc edilən materiallar və fotoşəkillər (kompakt disk formatında) toplanıb. 1960-cı illərin ortalarından – Amaliya xanımın səhnə və ekran uğurlarının şöhrəti geniş yayılmağa başlayandan vəfatınadək, hətta ondan sonra mətbuatda dərc olunan materiallar da bu qutuda yer alıb. Bunların arasında müxtəlif vaxtlarda “Mədəniyyət” qəzetində dərc olunmuş materiallar üstünlük təşkil edir.

Qəzet səhifələrində rast gəldiyim, sənətkarın dilindən verilmiş “Sənət amansız məkandır”, “Bir aktrisa kimi xoşbəxtəm ona görə ki, dramaturqlar yeni əsərlərində mənim üçün hər zaman rol yazırdılar” fikirləri zamanında Amaliya xanımın nə qədər tələbatlı və sevilən səhnə və ekran siması olduğunu göstərir. “Qobustan” dərgisində aktrisa haqqında yer alan yazılar da diqqətimi çəkir. Qovluqda aktrisaya həsr olunan və özünün ifasında yaddaşa köçürülmüş şeir və mahnılar da (CD formatında) yer alıb.

Bir neçə qovluqdan ibarət üçüncü qutuda teatrşünas, Əməkdar incəsənət xadimi, professor İlham Rəhimlinin aktrisaya həsr etdiyi “Səhnə sehrinin sirdaşı” monoqrafiyası (2005), Əməkdar mədəniyyət işçisi, jurnalist Telli Pənahqızının aktrisanın həyat yoldaşı, aktyor, Xalq artisti Yusif Muxtarovdan bəhs edən





“Səsin xiffəti” (2012), Əməkdar mədəniyyət işçisi Rafiq Rəhimlinin sənətkar haqqında “Teatr kraliçası” (2005) kitabları var.

Daha bir qovluq isə Amaliya xanımın özünün müəllifi olduğu “Obrazın yaranma prosesində aktyor yaradıcılığında ikinci planın təcəssüm vasitələri” monoqrafiyasıdır. Monoqrafiya sənətkarın doktorluq dissertasiyasıdır.

Amaliya Pənahovanın arxiv fondu ilə tanışlıq üçün yaratdığı şəraitə görə Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyevə təşəkkür edib məkandan ayrılıram.

Ancaq aktrisanın zəngin yaradıcılıq yolu, canlandırdığı obrazlar isə kino lenti kimi gözümün önündən getmir. Rol aldığı tamaşalarda, filmlərdə izlədiyim, daha sonralar görüşdüyüm, müsahibə aldığım sənətkar haqqında, onun arxivi barədə keçmiş zamanda bəhs edəcəyimi ağlıma gətirməzdim...

Amaliya Pənahova 1945-ci ildə Gəncə şəhərində anadan olub. 1966-cı ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu ixtisasını bitirib. 1964-cü ildən teatr və kinoda beş yüzdən artıq obraz yaradıb. 1974-cü ildə “Əməkdar artist”, 1985-ci ildə isə “Xalq artisti” fəxri adlarına layiq görülüb, “Şöhrət” (1995), “Şərəf” (2013) ordenləri ilə təltif olunub.

Onun aktrisa kimi teatr sevgisi bir başqa, kino sevgisi isə tamam fərqli idi deyir, sənətşünaslar. Elə bu səbəbdən də obrazları daima maraqla qarşılanırdı.

Sənətkar həmçinin bacarıqlı rejissor kimi də özünü sınadı. 43 illik sənət fəaliyyəti dövründə 12 televiziya və teatr tamaşasına quruluş verdi ki, bunların da əksəriyyəti lentə alınıb, hazırda televiziyanın “qızıl fond”unda saxlanılır.

O həm də teatr təşkilatçısı idi. 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradan aktrisa teatra orta və yaşlı nəsil aktyorları cəm etmişdi. Daha sonralar isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi dərs dediyi tələbələrin əksəriyyətinə Bakı Bələdiyyə Teatrının səhnəsində meydan vermişdi.

30-a yaxın filmdə bir-birindən maraqlı rollar oynayan aktrisa, bir o qədər filmi də səsləndirib, obrazların təsir gücünü daha da artırıb.

2018-ci ilin 8 noyabr tarixində dünyasını dəyişən aktrisa yaratdığı obrazlarla özünə əbədi ömür qazanıb. O, elə bil aktrisa doğulmuşdu. Müsahibələrinin birində belə demişdi: “Görünür, hər bir adamın taleyi, eləcə də sənəti hələ dünyaya gəlməzdən əvvəl müəyyən olunur...”.

**Lalə Azəri**

# Müasir tariximizin dönüş nöqtəsi – Milli Qurtuluş Günü

15 İyun – Milli Qurtuluş Günü müstəqil dövlətçiliyimizin qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində müstəsna rol oynayan ulu öndər Heydər Əliyev olub. Böyük dövlət xadiminin 1993-cü ilin 15 iyununda siyasi hakimiyyətə qayıdışı müasir tariximizin dönüş nöqtəsinə çevrildi. Milli Qurtuluş Günü hər il ölkəmizdə təntənə ilə qeyd olunur.



Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Qurtuluş salnaməsi" adlı tədbir keçirilib. Rayon İcra Hakimiyyətinin əməkdaşları Rahilə Şükürova və Əli Əhmədov, Ağcabədi rayon Heydər Əliyev Mərkəzinin direktor səlahiyyətlərini icra edən Rövşənə Əliyeva və digərlərinin çıxışları dinlənilib. Natiqlər əlamətdar günün dövlətçilik tariximizdə yerindən danışıblar. Qeyd olunub ki, Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib.

***



Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzi, rayon İcra Hakimiyyəti, YAP Masallı rayon təşkilatı, "Masallı Gənclər Evi" sosial xidmət müəssisəsi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr olunmuş inşa yazı müsabiqəsi keçirilib. Rayon ümumtəhsil məktəbləri şagirdlərinin iştirak etdiyi müsabiqədə Nargilə Tağıyeva I, Fidan Abdullayeva II, Aygül Şirəliyeva III yerlərə layiq görülüblər.

# Müxtəlif səpkili xəbərlər



Sumqayıt RMİ-nin tabeliyində fəaliyyət göstərən Şuşa Dövlət Rəsm Qalereyası tərəfindən Bakı şəhəri Sabunçu rayonunun Kürdəxanı qəsəbəsi ərazisindəki yeni yaşayış massivində fəaliyyət göstərən Şuşa rayon Quşçular kənd Uşaq musiqi məktəbində sərgi salonunun açılışı keçirilib. Tədbirdə Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev çıxış edib.

Sumqayıt RMİ-nin tabeliyində fəaliyyət göstərən Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin kamança ixtisası üzrə 5-ci sinif şagirdi Məhəmməd Nəzərli Türkiyədə keçirilən onlayn beynəlxalq musiqi müsabiqəsində II yerə layiq görülərək diploma mükafatlandırılıb. Məhəmmədi müsabiqəyə hazırlayan müəllimi Tünzalə Əzizova təşəkkürnamə ilə təltif edilib.

***

Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev Aşıq Əsəd Rzayev adına Tovuz şəhər Uşaq musiqi məktəbi və Qazax şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin pedaqoji kollektivləri ilə görüş keçirib.

# Şabranda yazıyaqədərki dövrə aid gil jetonlar aşkarlanıb

Şabran rayonunun Aygünlü kəndi ərazisindəki eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəlinə aid Çaqqallıqtəpə abidələr kompleksində arxeoloji qazıntıların növbəti mərhələsinə başlanılıb.



AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Şabran arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru Səfər Aşurov bildirib ki, hazırda arxeoloqlar I Çaqqallıqtəpədə qazıntı işləri aparırlar. Əsas məqsəd mədəni təbəqəni sona qədər öyrənmək və təpənin ilk məskunlaşma dövrünü müəyyənləşdirməkdir.

Burada qədim yaşayış yerləri ötən əsrin 70-ci illərində qeydə alınıb. 2016-cı ildə aparılan arxeoloji qazıntılar zamanı Çaqqallıqtəpədə 5 minillik tarixə malik qazma evlər aşkarlanıb. Tapıntılar Şimali Qafqazdan Suriyaya, Fələstinə qədər gedib çıxan Kür-Araz mədəniyyətinə aiddir. Eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəlinə aid edilən abidə bu vaxta kimi Azərbaycanın şimal-şərqində aşkarlanan və tədqiqatlar aparılan ən qədim yaşayış məskənidir.

Ekspedisiyanın üzvü Fidan Əliyeva deyib ki, qazıntı işləri zamanı tapılan materialların əksəriyyəti keramikadır. Bu da abidənin tarixini müəyyənləşdirməyə kömək edən əsas amillərdəndir. Keramika nümunələrinin əksəriyyəti üzərində yarımşar formalı qulpları olan saxsı məmulatlardır. Bu isə Erkən Tunc dövrünün əsas əlaməti sayılır.

Qazıntılar zamanı əksəriyyətində ox ucluqları olan çaxmaqdaşından alətlər də aşkarlanıb. Bu da sübut edir ki, eradan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəlində burada yaşayan yerli əhali əkinçilik və maldarlıqla yanaşı, ovçuluqla da məşğul olub.

Ekspedisiyanın digər üzvü Sevinc Hüseynova bildirib ki, Çaqqallıqtəpədə qazıntılar zamanı aşkarlanan ən əhəmiyyətli tapıntılardan biri də elmi ədəbiyyatda tokin adlandırılan gil əşyalardır. Tokinlər yazıyaqədərki dövrdə mübadilədə istifadə olunan gildən hazırlanmış xüsusi jetonlardır. Erkən Tunc dövrünə aid bu əşyalara indiyədək Azərbaycanda yalnız Naxçıvan Muxtar Respublikası ərazisindəki Maxta tarixi abidəsində rast gəlinib. Tokinlər Çaqqallıqtəpənin yerləşdiyi ərazidə ilkin inzibati idarəetmənin, yəni dövlətçilik ənənələrinin mövcud olduğunu sübut edir.

Çaqqallıqtəpə abidələr kompleksində arxeoloji qazıntılar iyun ayının sonunadək davam edəcək.

# Mədəniyyət paytaxtımız – ruhumuzun ünvanı




Şəki Regional Mədəniyyət İdarəsi (RMİ) Şəki şəhər Heydər Əliyev Mərkəzində şəhər Uşaq incəsənət məktəbinin təşkilatçılığı ilə "Rəqs bir dünyadır" adlı tədbir keçirilib. Şəki RMİ-nin rəisi vəzifəsini müvəqqəti icra edən Tərlan Nəsibov çıxış edərək rəqsin əhəmiyyətindən danışıb. Tədbir Şəki şəhər Uşaq incəsənət məktəbi rəqs kollektivinin çıxışları ilə davam edib.

***

Sumqayıt RMİ-nin əhatə etdiyi Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbində "Şuşa İli" çərçivəsində hesabat konserti keçirilib. Konsertdə məktəbin şagird və müəllimlərinin ifasında rəngarəng musiqi nömrələri səsləndirilib.

***

Lənkəran RMİ Oqtay Kazımi adına Astara şəhər Uşaq musiqi məktəbində "Azərbaycan bayrağı Şuşada dalğalanır!" adlı tədbir keçirilib. Məktəbin müəllim və şagirdlərinin ifasında xalq və bəstəkar mahnıları, milli rəqslərimiz ifa olunub, şeirlər səsləndirilib.

***

Sabirabad RMİ Sabirabad şəhər Ü.Hacıbəyli adına Uşaq musiqi məktəbində "Şuşa təranələri" adlı fortepiano ixtisası üzrə sinif konserti keçirilib. Konsertdə şagirdlər tərəfindən müxtəlif səpkili əsərlər ifa olunub.

***

Masallı RMİ Cəlilabad rayon Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Əziz Şuşa, sən azadsan!" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Müsabiqədə Cəlilabad şəhər 1, 7, 8 saylı tam orta məktəblərin şagirdləri iştirak edib.

***



Xaçmaz RMİ Qusar rayon Mədəniyyət Mərkəzinin Düztahir kənd Folklor evində "Adət-ənənələrimizin beşiyi – Şuşa" mövzusunda tədbir keçirilib. Tədbirdə bədii özfəaliyyət kollektivlərinin üzvləri, gənc oğlan və qızlardan ibarət rəqs qrupları konsert proqramı təqdim ediblər.

***

Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzinin Çuxanlı kənd Folklor klubu "Şuşa İli"nə həsr olunan konsert proqramı təşkil edib. Konsertdə Folklor klubu, həmçinin Qarabağlı kənd Diyarşünaslıq evi və Aşağı Kürkənd klubunun ansamblı və solistləri şən mahnılar səsləndiriblər.

***




İsmayıllı RMİ və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Ruhumuzun ünvanı – Şuşa" adlı tədbir keçirilib. Şamaxı rayon Heydər Əliyev adına parkda təşkil olunan tədbirdə rayonun icra başçısı Tahir Məmmədov, RMİ-nin rəisi Elçin Nəcəfov, idarə və müəssisələrin rəhbərləri və əməkdaşları, şəhid ailələri, rayon ictimaiyyəti iştirak ediblər. Şamaxı Xalq teatrının əməkdaşları, aşıqlar qrupu, müğənnilər Eldəniz Məmmədov, Xətai Hacıyev, Nisbət Sadrayeva, Rəvan Qaçayev və başqalarının iştirakı ilə ədəbi-musiqili kompozisiya təqdim edilib.

***

Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə "Mədəniyyətin beşiyi – Şuşa" adlı bədii qiraət müsabiqəsinin seçim mərhələsi keçirilib. Müsabiqədə rayon orta ümumtəhsil məktəblərindən 15 şagird iştirak edib.

# İnsan hüquqları: ləyaqət və bərabərlik

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) tərəfindən bu il də ənənəvi olaraq 18 may – 18 iyun tarixlərində ölkəmizdə "İnsan hüquqları aylığı" elan olunub. Aylıq çərçivəsində bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində silsilə tədbirlər təşkil edilir.

Gəncə RMİ Goranboy rayon Heydər Əliyev Mərkəzi, rayon Mərkəzi Kitabxanası və Goranboy Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycan cəmiyyətində insan hüquqları" mövzusunda seminar keçirilib. Çıxışlardan sonra iştirakçılar kitabxananın təşkil etdiyi "Hüquqlarımızı bilək" başlıqlı kitab sərgisinə baxıblar.

Ağdaş RMİ Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanası və Zərdab rayon Uşaq və ailələrə dəstək mərkəzinin birgə təşkilatçılığı ilə "Hüquqlarımızı müdafiə edək!" başlığı altında tədbir keçirilib. Zərdab rayon Heydər Əliyev Mərkəzində də mövzu ilə bağlı tədbir təşkil edilib. "Heydər Əliyev və insan hüquqları" mövzusunda məruzə dinlənilib.



Sabirabad RMİ Şirvan şəhər Heydər Əliyev Mərkəzi, Şirvan Dövlət Rəsm Qalereyası, şəhər Tarix-Diyarşünaslıq Muzeyi və şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev – hüquq və idarəetmə sistemini möhkəmləndirən lider" adlı tədbir keçirilib. Tədbir çərçivəsində Şirvan Dövlət Rəsm Qalereyası dərnək üzvlərinin insan hüquqları mövzusunda əsərlərinə baxış keçirilib.



Şəki RMİ Qax rayon MKS-nin Ağçay kənd kitabxanasında "Hüquqlarımızı bilək və özümüzü müdafiə edək!" mövzusunda diskussiya keçirilib. "İnsan hüquqları nədir?", "Uşaq haqları sözləşməsi" və "Uşaqların qorunma haqqı vardır" adlı animasiya çarxları nümayiş olunub.

Sumqayıt RMİ Xızı rayon Heydər Əliyev Mərkəzində "İnsan və vətəndaş hüquqları" adlı maarifləndirici tədbir keçirilib.

# Vətən ocaqdırsa, şəhidlər oddur...




Beyləqan rayonu Orta Əlinəzərli kəndində şəhidlərin xatirəsinə abidə inşa olunub. "Dirimiz əsgərdir, ölümüz şəhid" adlı abidədə 1-ci və 2-ci Qarabağ müharibələrində və 2016-cı ilin Aprel döyüşlərində şəhid olan Orta Əlinəzərli kəndindən 7 qəhrəman şəhidin fotoları əks olunub. Çıxışlardan məktəblilərin ifasında qəhrəmanlara, Vətənə həsr edilən şeirlər səsləndirilib.

***

Balakən rayonunun Talalar kəndində Vətən oğullarının xatirəsini əbədiləşdirmək məqsədilə abidə-bulaq kompleksi inşa edilib. Kompleksdə Birinci Qarabağ və Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Talalar kəndindən 18 şəhidin xatirə lövhələri yerləşdirilib. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış edərək 44 günlük Vətən müharibəsində şanlı Zəfərin şəhidlərimizin canı, qazilərimizin qanı bahasına qazanıldığını söyləyib. Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, professor Vahid Novruzov Ordumuzun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan, xalqla ordunun birliyindən bəhs edib.

Mərasimdə məktəblilərin ifasında Vətənə, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

***



Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzi və Gəncə şəhər MKS-nin 16 nömrəli kitabxana filialı "Şəhidlər şərəf, qeyrət zirvəsidir" mövzusunda Vətən müharibəsinin şəhidi Həsən Bayramovun ailəsi ilə görüş keçirib.

***

Sumqayıt RMİ Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət Mərkəzinin Mədəniyyət evi Vətən müharibəsi şəhidləri Emil İsgəndərov, Eltun Əliyev və Elvin Novruzova həsr olunan "Vətən ocaqdırsa, şəhidlər oddur" adlı ədəbi-bədii gecə təşkil edib.

**Hazırladı: N.Məmmədli**

# Azad torpaqlara aparan yollar



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan infrastruktur layihələrindən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun tikintisi işləri sürətlə davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildiriblər ki, uzunluğu 39,7 km olan yol başlanğıcını Hacıqabul-Minci-van-Zəngəzur dəhlizi magistralının Cəbrayıl rayonunun Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilən yol boyu 14 km-lik hissədə asfalt-beton örtüyünün döşənməsi və suni qurğuların inşası yekunlaşmaq üzrədir. 25.7 km-lik hissədə isə yol yatağının və yol əsasının inşası, yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi və hamarlayıcı lay asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur. Yolun 2, 19, 20, 27, 31 və 39-cu km-lik hissələrində 6 avtomobil körpüsünün inşası da layihə üzrə davam etdirilir.

Azad olunmuş ərazilərdə icra olunan daha bir infrastrukturu layihəsi uzunluğu 44.5 km təşkil edən Bərdə-Ağdam avtomobil yoludur. I texniki dərəcəyə uyğun (4 hərəkət zolaqlı) yolun 5-44.5-ci km-lik hissələrində torpaq işləri bitib. Asfalt-beton örtük hazırda yolun 20 km-lik hissəsində (25-44-cü km-lik) döşənir. Layihə üzrə 3 yerdə nəzərdə tutulan yerüstü piyada keçidlərinin tikintisi üçün hazırlıq işləri aparılır. Bundan başqa, yolun 25 və 40-cı km-lik hissəsində inşa olunan 91.3 və 18.2 metr uzunluğa malik körpülərin inşası yekunlaşıb.

***

Horadiz-Ağbənd dəmiryolunun ikinci mərhələsi üzrə işlər də davam edir. Uzunluğu 110,4 kilometr olan yolun tikintisi üç mərhələ üzrə həyata keçirilir. Artıq ikinci mərhələdə işlər görülür. İkinci mərhələnin başlanğıcı Prezident İlham Əliyev tərəfindən 26 mayda təməli qoyulan Soltanlı stansiyasından (Cəbrayıl rayonu) başlayır.

Azərbaycan Dəmir Yolları QSC-dən bildirilib ki, layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz,



Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılıb.

Yolda tikinti işləri üç mərhələdə həyata keçirilir. Birinci mərhələ yolun 30 kilometrlik hissəsini əhatə edir. Bu mərhələ üzrə işlərin 90 faizi yekunlaşıb. Hazırda 55 kilometr uzunluqda olan ikinci – ən böyük mərhələ Soltanlı, Qumlaq (Cəbrayıl rayonu), Həkəri və Mincivan (Zəngilan rayonu) stansiyalarını əhatə edir.

Aparılan bu işlər mina təmizləmə prosesi ilə bərabər yerinə yetirilir. Hazırda yolun 85 kilometrlik hissəsi minalardan tamamilə təmizlənib. Üçüncü mərhələ isə Mincivandan Bartaz-Ağbənd istiqamətində olacaq ki, bu da yol üzrə 25,4 kilometrlik hissəni əhatə edəcək.

# Musiqi tariximizə yazılan festival



Ölkəsinə, vətəninə, xalqına, dövlətinə xidmət edən hər kəs vətəndaş sayılır. Amma elə insanlar da var ki, onlar yalnız öz ölkəsində, öz dövlətində deyil, dünya miqyasında tanınırlar. Belə şəxsiyyətləri isə fədakar vətəndaş adlandırmaq olar. Çünki onlar yalnız öz həyatını deyil, xalqının adının ucalığını, dövlətinin, vətəninin dünyada təmsil olunmasını düşünərək daim fədakarlıqla çalışırlar. Azərbaycan bəstəkarlıq məktəbini təmsil edən Firəngiz Əlizadə məhz belə simalardandır. O həm Azərbaycanın, həm də dünyanın tanıdığı sənətkardır.

Azərbaycanın Xalq artisti, UNESCO-nun "Sülh artisti", AMEA-nın müxbir üzvü, "Şöhrət" və "Şərəf" ordenləri, "Ağa Khan Music Awards-2019" mükafatı laureatı, professor, Azərbaycan Bəstəkarlar İttifaqının sədri. Bir adın qarşısında bu qədər titulların olması, təbii ki, fədakar vətəndaşlığın, yüksək əyarlı sənətkarlığın, şərəfli, ləyaqətli bir şəxsiyyət olmağın bariz nümunəsidir. Bu sadalanan yüksək fəxri adların arxasında zərif simalı, gözəl qəlbli, bütün varlığı ilə xalqına bağlı olan böyük vətəndaş dayanır. O, sələflərinin yolunu, əməllərini layiqincə davam etdirməyi bacaran, eyni zamanda musiqi sənətində yeni yollar açan Firəngiz Əlizadədir.

Azərbaycan musiqisini dünya səviyyəsində təbliğ və təmsil edən Firəngiz Əlizadə geniş yaradıcılıq irsi ilə daim məşhur musiqiçilərin diqqətini cəlb edib. Onun əsərləri həm vətənində, həm də uzaq ölkələrdə tanınaraq müasir Azərbaycan musiqisinin inikasına çevrilib. Bəstəkarın özünəməxsus fərdi üslubu xalq yaradıcılığından, muğam sənətindən bəhrələnərək onları müasir musiqi elementləri ilə qovuşdurmaq bacarığının təzahürüdür. Bu yazıda Firəngiz Əlizadə yaradıcılığının təhlilinə yer versək, onda mövzudan uzaqlaşmış olarıq. Çünki bəstəkarın yaradıcılığı və ictimai fəaliyyəti çox genişdir. Bizim isə məqsədimiz onun yubiley günlərinin ümumi şərhini verməkdir.

31 may – 4 iyun tarixlərində Firəngiz Əlizadənin yubileyi ilə əlaqədar gerçəkləşən musiqi festivalı mədəni həyatda geniş rezonans doğurdu. Bu günlərdə müxtəlif musiqi ocaqlarında bəstəkarın əsərləri səsləndi, onunla görüşlər keçirildi. Bütün bunlar Firəngiz xanımın fədakar fəaliyyətinin bəhrəsidir. Bu fəaliyyətin bariz nümunəsi mayın 20-də Azərbaycan Bəstəkarlar İttifaqında təqdim olunan sənədli filmdə də öz əksini tapıb. Rejissor Cahangir Zeynalov tərəfindən çəkilmiş filmdə unikal kadrlar, Firəngiz Əlizadənin dünya səhnələrindəki çıxışları, dünyanın görkəmli musiqiçilərinin bəstəkarla görüşləri, onun haqqında dəyərli fikirləri təqdim olunur.

Mayın 25-də Rostropoviçlərin ev-muzeyində bəstəkarla musiqi ictimaiyyətinin görüşü keçirildi. Burada da bəstəkarın geniş yaradıcılığı ilə bağlı söhbət açıldı, gənc musiqiçilər öz ifalarını sənətkara ərməğan etdilər. Tədbirdə Firəngiz xanım "Dədə Qorqud" Cəmiyyəti tərəfindən "Mehriban ana" ordeni ilə təltif olundu.

28 May – Azərbaycanın Müstəqillik, Firəngiz xanımın isə doğum günü. Dövlət başçımız İlham Əliyev mayın 27-də imzaladığı sərəncamla Firəngiz Əlizadə musiqi mədəniyyətimizin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edildi.

31 may – Firəngiz Əlizadənin yubileyinə həsr olunan musiqi festivalının ilk günü Azərbaycan Bəstəkarlar İttifaqında elmi konfrans keçirildi. Tanınmış musiqi xadimləri, musiqişünas və pedaqoqlar bəstəkarın musiqi irsindən bəhs etdilər, onun zəngin yaradıcılıq fəaliyyətindən, Şərq və Qərb, millilik və müasirlik, ənənə və novatorluğun orijinal şəkildə sintez edilməsinə əsaslanan üslub xüsusiyyətlərindən danışdılar.

Festival çərçivəsində iyunun 1-də Beynəlxalq Muğam Mərkəzində bəstəkarın əsərlərindən ibarət konsert bir çox maraqlı cəhətlərlə yadda qaldı. Qara Qarayev adına Dövlət Kamera Orkestrinin və solistlərin ifasında Firəngiz Əlizadənin dünyanın məşhur konsert salonlarında səslənən əsərləri təqdim olundu. Onu da qeyd edək ki, bir neçə solist xaricdən gələn musiqiçilər idi. Onur Özkan (kontrabas, Türkiyə), Margis Kuplais (violonçel, İsveçrə). Konsertdə müxtəlif illərdə yazılan əsərlər ifa olundu: "Methamorfosis" (Simli orkestr üçün, 2002), "Sirius" (Solo vibrafon üçün, 2015), "Deyişmə II" (Kontrabas, tabla və kamera orkestri üçün, 2005), "Oyan!" (Solo violonçel üçün, 2005), "Dance" (Kamera orkestri üçün, 2016).

Festival çərçivəsində iyunun 2-də Milli Kitabxanada bəstəkarla görüş və onun yaradıcılıq sərgisi keçirildi. Bu yaradıcılıq sərgisində Firəngiz xanımın Qara Qarayev haqqında və digər kitabları, eyni zamanda müxtəlif müəlliflərin onun həyat və yaradıcılığından bəhs edən kitabları sərgiləndi. Təqdimatın ən önəmli cəhəti Firəngiz Əlizadənin məşhur dünya şirkətləri tərəfindən buraxılan audio və video diskləri idi. Bəstəkar öz şəxsi arxivində saxlanılan və dünya şirkətlərində qorunan bu disklərin yazılma tarixindən ətraflı danışdı. Sərgidə xarici musiqişünasların da bəstəkar haqqında kitabları vardı. Tədbirdə Almaniyadan gələn Qabriel Teşner də çıxış edərək Firəngiz xanımın dünya musiqisində rolundan və əhəmiyyətindən söz açdı.

Festivalın 3 iyun tarixi yenə də tamaşaçıları bəstəkarın musiqisi ilə baş-başa qoydu. Həmi gün Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin müşayiəti ilə solistlərin ifasında maraqlı əsərlər təqdim olundu. Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov bəstəkarı ölkə rəhbərliyi adından təbrik etdi.

Konsert proqramına Firəngiz xanımın "Nağıllar" (Böyük simfonik orkestr üçün, 2002, Bakıda ilk ifa), "Mərsiyə" (Violonçel və simfonik orkestr üçün konsert, 2002), "İntizar" operasından Ananın ariyası, "Nizami Cosmology" (Simfonik orkestr və elektron səsləri üçün, 2021, Bakıda ilk ifa) əsərləri daxil edilmişdi. Xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu ilə səslənən bu əsərlərin sonuncusu ilk dəfə ifa olunan "Nizami Cosmology" idi. Nizami poetik dünyasının Firəngiz Əlizadə musiqisi ilə vəhdəti kamil sənətkarlığın ifadəsidir. Bəstəkar bu əsəri ilə klassik Azərbaycan poeziyasının musiqidə təcəssümünün yüksək peşəkarlıqla tərənnümünə nail olub.

Festivalın sonuncu günü – iyunun 4-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkarın "İntizar" operasının tamaşası oldu. Xalqımızın 30 il intizarında olduğu yurd yer həsrətinin vüsalını bəstəkar hələ bir neçə il bundan əvvəl öz operasında ağ atlı oğlanın simasında təqdim etmişdi. Onun möhtəşəm və ümid dolu musiqisi sanki mübariz xalqın – Ali Baş Komandanımızın və rəşadətli Ordumuzun Vətən müharibəsində Qələbə sorağının carçısıdır. Operanın belə möhtəşəm musiqi ilə tamamlanması, yeni epiloqu sanki elə yubiley tədbirlərinin də kulminasiyası oldu. Elə biz də bu möhtəşəmliyin sədaları altında festival iştirakçılarının və sənətsevərlərin bəstəkara olan ürək sözlərini və arzularını belə ifadə edirik.

Daim yaradıcılıq axtarışında olan Firəngiz Əlizadə bu gün də ənənəsinə sadiqdir. O, Azərbaycanı – doğma Vətənini böyük məhəbbətlə sevir və ona şərəflə xidmət edir. İnanırıq və əminik ki, onun əsərlərinin sədası bundan sonra da dünyanın ən məşhur konsert salonlarından gələcək. Belə sənətkarın hər bir uğuru elə xalqın, vətənin uğuru deməkdir.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

## Almaniyalı qonaq Rostropoviçlərin muzeyində

Almaniyanın dünyaca məşhur "Hans Sikorski" musiqi nəşriyyatı Firəngiz Əlizadə ilə əməkdaşlıq edərək, onun yaradıcılığını təbliğ edir. Bu günlərdə bəstəkarın yubileyi münasibətilə Bakıda keçirilən musiqi festivalında "Hans Sikorski" nəşriyyatının nümayəndəsi, bəstəkar və repertuar meneceri Qabriel Teşner də iştirak edib.



Qonaq səfər zamanı Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyini də ziyarət edib. Muzeyin ekspozisiyası ilə maraqla tanış olan Qabriel Teşner Mstislav Rostropoviç və Firəngiz Əlizadə kimi görkəmli insanların doğulduğu şəhərdə olduğu üçün qürur hissi keçirtdiyini bildirib.

Muzeyin direktoru Günay Əliyeva qonağa Mstislav Rostropoviçin Almaniyada çıxışları, Kronberq Akademiyasında fəaliyyətinə dair kitablar, orada adına keçirilən musiqi festivallarının proqramları, maestronun "Deutsche Grammofon"da işıq üzü görən, ifalardan ibarət albomları barədə ətraflı məlumat verib. M.Rostropoviç və F.Əlizadə kimi iki böyük musiqiçinin dostluğu, yaradıcılığı, eyni zamanda nəşriyyat evinin fəaliyyəti və görüləcək layihələr ətrafında maraqlı söhbət aparılıb.

Sonda Qabriel Teşner xoş və səmimi qarşılanma, maraqlı ekskursiyaya görə minnətdarlığını bildirib.

## "Mədəni gənclik" layihəsində "O olmasın, bu olsun"

Mədəniyyət Nazirliyinin "Mədəni gənclik" layihəsinə qoşulan tələbə gənclər Azərbaycan Dövlət Akademik Musiqili Teatrında növbəti tamaşaya baxıblar. İyunun 7-də teatrda Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası nümayiş olunub.



Tamaşanın quruluşçu rejissoru Xalq artisti, rejissor Cənnət Səlimova, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, quruluşçu rəssamı Əməkdar rəssam İsmayıl Məmmədov, xormeysteri Əməkdar artist Vaqif Mastanov, dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, konsertmeysteri Fidan Babayeva, rejissor assistenti Sevinc Məmmədovadır.

Səhnə əsərində rolları Əməkdar artistlər Şövqi Hüseynov, Əzizağa Əzizov, Ələkbər Əliyev, Nahidə Orucova, Nadir Xasiyev, aktyorlar Möylə Mirzəliyev, Aydan Həsənova, Şaban Cəfərov, Hüseyn Əlili, Elxan İsmayılov, Əliməmməd Novruzov, Elməddin Dadaşov, Təranə Əliyeva, Fərid Rzayev, Cəbrayıl Cəbrayılov, Əli Kərimov, Murad Əliyev, Rüstəm Rüstəmov, Rahib və Nuray Məmmədzadələr ifa ediblər.

Qeyd edək ki, bundan öncə "Mədəni gənclik" layihəsi çərçivəsində Akademik Musiqili Teatrda Viktor Hüqonun "Paris Notr-Dam" əsərinin motivləri əsasında rejissor Samir Qulamovun quruluşunda hazırlanan "Paris Notr-Dama ithaf" tamaşası göstərilmişdi.

Yeri gəlmişkən, iyunun 11-də teatrda "O olmasın, bu olsun" tamaşasının daha bir nümayişi olacaq.

## Musiqi məktəbinin yekun konserti

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin L. və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik Musiqi məktəbi Beynəlxalq Muğam Mərkəzində tədris ilinin yekunu ilə bağlı hesabat konserti verib.



İdarədən bildirilib ki, konsertdə məktəbin müəllim və şagirdləri Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini solo, eləcə də ansamblla ifa ediblər. Tədbirdə Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova, Baş idarənin rəisi İbrahim Əliyev, musiqi və incəsənət məktəblərinin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

"Şuşa İli" çərçivəsində baş tutan hesabat konserti şagirdlərin parlaq çıxışları və tamaşaçı alqışları ilə yadda qalıb.

## "Qarınqulu" ilk tammetrajlı animasiya filmimiz olacaq



Ölkəmizin animasiya filmləri tarixində ilk dəfə "Qarınqulu" adlı tammetrajlı animasiya filmi təqdim ediləcək. Bu barədə Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin sektor müdiri Rüfət Əliyev məlumat verib.

Ölkəmizdə uşaq filmlərinin istehsalının daha çox diqqətdə saxlanılmasının vacibliyindən danışan R.Əliyev bu sahəyə yeni mütəxəssislərin cəlb edilərək bütün istehsalat prosesinin Azərbaycanda aparılmasının prioritet məsələ olduğunu vurğulayıb: "Animasiya filmlərinin hazırlanması prosesində texniki imkanlar Azərbaycanda istədiyimiz kimi olmadığına görə biz bu işi tamamlamaq üçün layihəni xarici ölkələrə göndərməli oluruq. Amma məqsədimiz bu işi tam olaraq Azərbaycanda təşkil etməkdir".

Sektor müdiri hazırda animasiya sahəsi üzrə ölkəmizdə 20-yə yaxın peşəkar mütəxəssisin olduğunu diqqətə çatdırıb. Bildirib ki, hazırda "Qarınqulu" tammetrajlı animasiya filmi ilə bağlı müvafiq işlər görülür: "Layihə davam etdikcə, bu prosesdə iştirak edənlərin sayı daha da artacaq. Ümid edirəm ki, bu, ölkəmizdə müvəffəqiyyətli layihə olacaq və həmçinin filmi tanınmış aktyorlarımız səsləndirəcək".

## "Golden Kids Awards – 2022" nominasiyaları üzrə təltif mərasimi keçirilib




Nizami Kino Mərkəzində "Azərbaycan Könüllüləri" İctimai Birliyinin təşkilatçılığı ilə sayca dördüncü dəfə "Golden Kids Awards – 2022" uşaq nominasiyaları üzrə mükafatlandırma mərasimi keçirilib.

"Azərbaycan Könüllüləri" İctimai Birliyinin (AKİB) prezidenti İmaməddin Quliyev layihənin istedadlı uşaqlar və gənclər üçün motivasiya xarakteri daşıdığını vurğulayaraq iştirakçılara yeni uğurlar arzulayıb.

AKİB-nin Mədəniyyət və incəsənət departamentinin rəhbəri Ülviyyə Bəbirli də layihənin "Şuşa İli" çərçivəsində keçirildiyini vurğulayaraq hər kəsə öz təşəkkürünü bildirib.

Qala-gecənin aparıcıları Ceyhun Həsənli və Elnarə Sadıqova 22 nominasiya üzrə mükafatları təqdim etmək üçün qonaqları və qalibləri səhnəyə dəvət edib. Mükafatlandırma mərasimində Milli Məclisin deputatları, Mədəniyyət Nazirliyinin əməkdaşları, dövlət və QHT nümayəndələri, mədəniyyət və ictimaiyyət xadimləri iştirak ediblər.

AKİB-nin Mədəniyyət və incəsənət departamentinin təsis etdiyi "Golden Kids Awards" müsabiqəsi 2018-ci ildən keçirilir. Layihənin məqsədi 5-16 yaşadək uşaq və gənclərin yaradıcı inkişafına, istedad və bacarıqlarının üzə çıxmasına dəstək olmaqdır.

## Xalq artisti və belaruslu sənətşünas Lənkəran teatrında

Tanınmış aktyor, Xalq artisti, Prezident mükafatçısı Vidadi Həsənov və Belarusdan gələn sənətşünas Olqa Klip iyunun 5-də Lənkəran Dövlət Dram Teatrında olublar.



Sənət ocağının yaradıcılıq fəaliyyəti, mövcud şəraiti ilə yaxından tanış olan qonaqlar gənc rejissor Tərlan Abdullayevin quruluşunda İlqar Fəhminin "Şahnamə" ("Qanlı nama") pyesi əsasında hazırlanan tamaşanın məşq prosesini də izləyiblər.

Daha sonra teatrın yaradıcı kollektivi ilə görüşən V.Həsənov və O.Klip tamaşanın məşqləri barədə fikirlərini söyləyib, tövsiyələrini bildiriblər.

Teatrın direktoru Tofiq Heydərov və aparıcı səhnə ustası, Xalq artisti, Prezident təqaüdçüsü Qabil Quliyev kollektiv adından qonaqlara dəyərli fikirlərinə görə minnətdarlıqlarını çatdırıblar.

# “Şuşada az qala hər ev Azərbaycana bir neçə alim, musiqiçi bəxş edib”

## Vasif Quliyev: “Hazırda “Şuşanın tarixi” adlı kitab üzərində işləyirəm. Bu kitabda nə yazıla biləcəksə, hamısını toplamağa çalışıram”

Yurdu həm də onun sakinindən xəbər alarlar. Tarixə yazılanlar qədər yazılmayanlar da maraqlı olur. Elin mədəni-mənəvi zənginliklərini öyrənən, davamlı şəkildə təbliğ edənlərin zəhməti yüksək təqdirə layiqdir. Əgər bu el, bu mahal on illərlə mədəni miras qənimi bədnam ermənilərin işğalı altında qalıbsa, belə cəfakeş araşdırıcıların missiyasının dəyər-qiyməti birə-beş artır...

Müsahibimiz mədəniyyət paytaxtımızda doğulub böyüyən, Vətənimizin bu dilbər guşəsini tarixi-mədəni və etnoqrafik baxımdan davamlı araşdıran tanınmış yazıçı-publisist, “Şuşa” qəzetinin redaktoru Vasif Quliyevdir. O, 50 ildən artıqdır arxivlərdə Şuşa və Qarabağla bağlı araşdırmalar aparır, əzəli yurd yerlərimizin tarixi şəxsiyyətləri, məşhur nəsilləri, Şuşanın etnoqrafiyası ilə bağlı 30-dan artıq kitabın müəllifidir.

Vasif müəllimlə “Şuşa” qəzetinin redaksiyasında görüşürük. İş masasının üzərində çoxsaylı arxiv materialları və kitablar var. Azərbaycan və rus dillərində “Mehmandarovlar” kitabı diqqətimizi çəkir. Elə söhbətimizə də bu məşhur nəsillə bağlı sualla başlayırıq.

*– Vasif müəllim, Mehmandarovların şəcərəsi haqqında kitab həm də Qarabağ həqiqətlərinin ifadəsi baxımından tutarlı mənbədir...*

– Azərbaycanın görkəmli sülalələrindən olan Mehmandarovlar barədə qələmə aldığım kitab 40 ildən artıq dövrdə apardığım axtarışların məhsuludur. Əldə etdiyim zəngin materiallar və nadir tapıntılar əsasında Qarabağ tarixinin ictimai-siyasi və etnik-mədəni irsinin nadir bir parçası olan məşhur bir nəsil haqqında mükəmməl bir tarixçə yaratmağa nail oldum. Uzun illər müxtəlif qaynaqlardan ailə arxivi və əsas arxivlərdən, rusdilli və anadilli mətbuat səhifələrindən tapıb topladığım materiallar bu kitabda yer alıb. Rejissor, Əməkdar incəsənət xadimi Yavər Rzayev hazırda bu kitab əsasında tammetrajlı sənədli film üzərində işləyir. Bu gün Mehmandarovların Şuşadakı evi restavrasiya edilir. Restavrasiya işləri bitdikdən sonra filmin Şuşa ilə bağlı kadrları da lentə alınacaq.

*– Azad Şuşaya illər sonra qayıdışınız necə oldu? Təəssüratlarınız maraqlıdır.*

– Ötən ilin may ayında bir qrup şuşalı mədəniyyət xadimi ilə “Xarıbülbül” festivalına getdik. Desəm ki, heç bir təəssüratım olmadı, bəlkə də inanmayacaqsınız. Çünki bu 28 ildə mən sanki hər gün Şuşada olmuşam. Mən arxivdə işləyən adamam. Gündüzlər arxivdə Şuşa ilə bağlı araşdırma aparır, axşamlar isə yazırdım. Qeyri-adi bir hiss yaşamadım. Düzdür, adam baxanda pis olur, köhnə Şuşa ilə indiki Şuşa arasında fərq var. Ermənilər, demək olar ki, şəhəri dağıdıblar. Şəhərin əsas müsəlmanlar (azərbaycanlılar) yaşayan hissəsi dağıdılıb. Şuşa iki hissədən ibarət idi. Onu da o vaxt ruslar gələndə ayırmışdılar. Müsəlmanlar yaşayan məhəllə ikinci hissə, ermənilər yaşayan məhəllə isə birinci hissə adlanırdı. İdarələr, müəssisələr birinci hissədə idi. İndi salamat qalan binalar əsasən şəhərin birinci hissəsindədir. İkinci hissənin əksər tarixi abidələrini dağıdıblar. Qurğuşunla tikilən Hacı Qulunun malikanəsi, Zöhrabbəyovların malikanəsi və s. Ürəyim açılmırdı, amma bunların hamısını qələmə aldığım üçün adi yanaşırdım. Çünki yaşamışdım bu gördüklərimi. 1905-1906-cı il erməni-müsəlman davasından yazdığım məlumatlarla gördüyüm mənzərələr eyni idi.

*– Ata-baba evinizi görə bildinizmi?*

– Mən Şuşadan 15 yaşımda çıxmışam. Beş il Xankəndidə yaşadıqdan sonra Bakıya gəlmişəm. Nənəmgilin, bacılarımın, qardaşımın evi Şuşada idi. Bacımgilin evi Xan qızı bulağının qarşısında idi. İndi ora dümdüzdür. Ermənilər oradan yol çəkiblər. Nənəmgilin evi salamat idi. Həyət-bacası da yerində. Dəmir darvaza 28 ildə açılmayıb. Həyətə girdim evə keçə bilmədim. Uşaqlığım orada keçdiyi üçün kövrəldim. Babamın evi tarixi abidə deyildi. Amma tarixi abidələrin dağıdılması pis təsir edir.

*– Uzun illərdir Şuşa ilə bağlı araşdırmalar aparır, yazılar yazırsınız. Şuşanın ən az tədqiq olunan sahəsi hansıdır?*

– Bir fikrimi də çatdırmaq istərdim. 20-30 il əvvəl Şuşanın tarixi ilə çox az sayda insan məşğul olurdu. Bu iki il ərzində o qədər Şuşadan yazan tarixçi və araşdırmaçı ortalığa çıxdı ki. Əksər məlumatların bəzən yanlış, bəzən də köçürmə olduğunu deyə bilərəm. Bilməyən adamlar Şuşanın, Qarabağın tarixindən məqalələr yazırlar. Bir müddət əvvəl mənim kitablarımdan plagiat köçürmələrin qarşısı alındı. Ötən il isə AZƏRTAC informasiya agentliyi belə bir təşəbbüslə müraciət etdi ki, yazdığım məlumatlar və informasiyalar həftədə bir dəfə dərc edilsin. Söhbət mənim yazımdan deyil, məlumatın düzgünlüyündən gedir. Yazdığım məlumatlar arxiv materiallarıdır və dəqiq rəqəmlərdir. İstəyim odur ki, səhv məlumatlar olmasın...



Tədqiq olunmayan sahələrə gəlincə isə, belə demək olar ki, hər sahəsi tədqiq olunub amma natamam. Tədqiq olunmayan sahələr də var. Firudin Şuşinski o vaxt Şuşa haqqında yazarkən ən çox mədəniyyət, musiqi sahəsini qələmə alıb. Məsələn, sovet vaxtı elmi işlər yazılıb – “Şuşada sənayenin inkişafı”, “Şuşa inqilab mərkəzidir” və s. Amma mən hazırda kompleks şəkildə “Şuşanın tarixi” adlı kitab üzərində işləyirəm. Bu kitabda nə yazıla biləcəksə, hamısını toplamağa çalışıram. Bir şəhərin və kəndin tarixini yazanda gərək elə yazasan ki, əhatəli olsun. Hazırda Şuşanın bünövrəsinin qoyulması günündən – 1750-ci il iyunun 20-dən tutmuş 2022-ci ilə qədər bütün hadisələri toplamağa çalışdım. Min səhifəlik, böyük formatda kitabın ilin sonuna kimi hazır olması nəzərdə tutulub. Bu kitabda Şuşa təbiətindən tutmuş, sənayesinə, musiqisindən dağına-daşına qədər qeyd edilib.

*– Niyə Şuşanın bünövrəsi məhz 20 iyunda qoyulub?*

– Bu tarixə mənim şəxsi yanaşmam var. Tarixçilər mənimlə razı olmasalar da, tarixə geniş ekskursiya etmədən deyərdim ki, Nadir şah böyük sərkərdə olsa da, səhvləri çoxdur. Onun şah seçilməsinə Qarabağ bəylərbəyliyi razı deyilmiş. Şah seçildikdən sonra bəylərbəyliyi ləğv edir və parçalayır. 1747-ci il iyunun 20-də Nadir şah öldürülür və elə alınır ki, Pənahəli xan rəmzi mənada bəylərbəyliyin ləğv edilməsi, bir hissəsinin gürcülərə verilməsi acığına Şuşanın bünövrəsini iyunun 20-də qoyur.



*– Şuşa, Qarabağ haqqında kitablarınızdan danışaq...*

– Gördüyünüz ikicildlik “Şuşa nəğmələri” kitabımı 1976-cı ildən toplamağa başlamışdım və 25 ilə bitirdim. 6 cild olacaq. Bu kitabda Şuşa haqqında yazılan şeirlər və poemalar da yer alıb. 25 ilə iki cild, 1800 səhifə. Daha 4 cild də nəşr olunmalıdır. Bunu ona görə deyirəm ki, mədəniyyətin, sənətin inkişafı baxımından Şuşanı çox zaman Təbrizlə müqayisə edirlər. Amma mən Təbriz haqqında kitaba baxdım və gördüm ki, Şuşanın zənginliyi daha möhtəşəmdir və heç də ondan geri qalmır.

*– Nəsr əsərlərini də toplamaq fikriniz var?*

– 45-46 il əvvəl nəzmi başladım. Toplamaq bir az çətindir. Aylarla Milli Kitabxanada və arxivlərdə oluram.

*– Şuşa həm də Azərbaycan elminə görkəmli simalar bəxş edib...*

– Şuşanın təxminən 500 alimi var. Onlardan 35-i akademik, 200 nəfərə qədəri elmlər doktoru və s. Balaca bir şəhərdə az qala hər ev bir neçə alim, musiqiçi bəxş edib Azərbaycana. Məsələn, unudulmaz Rəşid Behbudovgilin ailəsi – atası, qardaşı, bacısı, özü, bacısı oğlu və qızı. Belə nümunələr çoxdur.

*– Bayaq söhbətimiz zamanı qeyd etdiniz ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması Şuşanın inkişafına mane oldu...*

– İlk olaraq onu deyim ki, Şuşanın əhalisi ən çox 43 min 800 nəfər olub. Bu rəqəm 1917-ci ilə aiddir. 1992-ci ildə şəhər işğal ediləndə 13 min əhalisi vardı. Niyə belə azaldı? Sovet hökuməti quruldu və bəy-xan şəhərində öldürülənlər, sürgün edilənlər oldu. 1923-cü ildə qondarma qurum yaradılandan sonra süni surətdə azərbaycanlılar buradan azaldılmağa başlanıldı. İkincisi isə vilayətin inzibati mərkəzi ilk əvvəl Şuşa şəhəri oldu, daha sonra ermənilərin təkidi ilə Xankəndinə verildi. Şuşadakı bütün sənaye müəssisələri Xankəndidəki zavod-fabriklərin filialı kimi işləyirdi. Bu səbəbdən mənfi təsirlər çox oldu. İndi deyəcəyim bu faktı qəzetdə də bir dəfə çap etmişəm. 1957-ci ildə Xalq artisti Bülbül SSRİ Ali Sovetinin deputatı idi. Həmin vaxt da Şuşaya Turşsu mineral su kəməri çəkilir. Ermənilər Moskvaya yazırlar ki, niyə su Xankəndinə deyil, Şuşaya çəkilir. Bülbül gedir Xankəndinə və müşavirədə bu məsələni həll etməyə çalışır. Ermənilər iddia edirlər ki, kurort şəhəri adı Xankəndinə verilməlidir. Bülbül çıxışı zamanı bir kəlmə ilə məsələni həll edir. Deyir su bura çəkilsin, kurort şəhəri adı da bura verilsin. Mən razı. Amma bir sualıma cavab verin görüm Şuşanın havasını harasa aparmaq mümkündür? Bununla da məsələ həll olunur...

*– Hazırda hansı mövzularda kitablar üzərində işləyirsiniz?*

– Əvvəldə də qeyd etdiyim kimi, Şuşa və Qarabağ tarixi ilə bağlı 30-dan artıq kitabım nəşr olunub. Onlardan 10-u tərcümədir, 20-si isə müəllifi olduğum kitablardır. Çox şadam ki, redaktoru olduğum və sonradan Azərbaycan dilinə tərcümə etdiyim “Köhnə Şuşa” kitabına Birinci vitse-prezident Mehriban xanım Əliyeva ön söz yazıb. Qarşıda Şuşa haqqında bir neçə cildlik kitab nəzərdə tuturam. İki min nəfər şuşalı elm, ədəbiyyat və mədəniyyət xadiminin fəaliyyəti, şəhərin tarixində rolu haqqında yazmaq olar. Onlardan, demək olar, tək musiqi sahəsi üzrə 1000-dən artıq məqaləm, oçerk və ensiklopedik yazım dərc olunub. “Şuşa” qəzetinin hər nömrəsində “Qarabağ ensiklopediyası” başlığı ilə məlumatlar dərc edirik.

*– Bəs “Şuşa İli”nə əsas töhfəniz nə olacaq?*

– Əsas məqsədim “Şuşanın tarixi” kitabımı və 52 ildir üzərində işlədiyim “Qarabağ ensiklopediyası”nı nəşr etdirməkdir. Bir də Pənahəli xan haqqında sənədli-tarixi romanımı bitirib çap etdirmək arzusundayam.

*– Sizə, bu yorulmaz fəaliyyətinizdə uğurlar və cansağlığı arzulayırıq.*

– Təşəkkür edirəm.

**Lalə Azəri**

# Ruhulla Axundovu Şah bulağı əvəzlədi...

## Xəzər rayonunda bir sıra küçələrin adları dəyişdirilib



Bakı Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə paytaxtın Xəzər rayonunun qəsəbələrində 10 küçənin adı dəyişdirilib. Küçələrə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri üzrə Dövlət Xidməti tərəfindən təqdim olunmuş sxemlərə uyğun olaraq yeni adlar verilib.

Mərdəkan qəsəbəsində 20-ci Mərdəkan küçəsi bundan sonra yazıçı-dramaturq Ənvər Məmmədxanlının adını daşıyacaq.

Zirə qəsəbəsində Bünyad Sərdarov (inqilabçı-bolşevik) küçəsi Əbdülağa Cavadov (neftçi-alim) küçəsi adlandırılıb.

Binə qəsəbəsində 20-30-cu illərdə sovet Azərbaycanının rəhbərlərindən olmuş Qəzənfər Musabəyovun adını daşıyan küçəyə neftçi-həkim Həsənağa Əliyevin adı verilib.

Həmin qəsəbədə Serqo Orconikidze (Azərbaycanda sovet hakimiyyətinin qurucularından biri) küçəsi Əlirza Bayramzadənin (energetik, mühəndis) adını daşıyacaq.

Binə qəsəbəsində Azərbaycanda sovetləşmənin aparıcı simalarından olmuş Dadaş Bünyadzadənin (ilk maarif komissarı, respublika Xalq Komissarları Sovetinin (hökumət) sədri) adını daşıyan küçə isə Şah bulağı (?) adlandırılıb.

Buzovna qəsəbəsində Səməd ağa Ağamalıoğlu (Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, sovetləşmədən sonra ilk xalq torpaq komissarı) küçəsinə ədəbiyyatşünas Gülrux Əlibəylinin adı verilib.

Həmin qəsəbədəki daha bir küçənin adında isə Ruhulla Axundovu (20-30-cu illərdə partiya-sovet xadimi, Azərbaycanda latın qrafikalı əlifbaya keçidin təşkilatçılarından biri) ədəbiyyatşünas Əziz Mirəhmədov əvəz edəcək.

Şüvəlan qəsəbəsində də Ruhulla Axundovun adı küçədən götürülüb. Həmin küçəyə Qafur Məmmədovun (Sovet İttifaqı Qəhrəmanı) adı verilib.

Türkan qəsəbəsində inqilabçı Xanlar (Səfərəliyev) küçəsi ustad xanəndə Ağaxan Abdullayevin adını yaşadacaq.

Şağan qəsəbəsindəki Məşədi Əzizbəyov (26 Bakı komissarlarından biri) küçəsinə görkəmli aktrisa Səfurə İbrahimovanın adı verilib.

# “Şeirlərini ürək qanı ilə bənövşə yarpağına yazırdı...”

Sovet dövründə mürtəce rejimin qılıncının hər iki üzü kəsəndə milli tarixi yaddaşı oyatmaq, xalqın kimliyi barədə onun qulağına nələrsə pıçıldamaq böyük vətəndaşlıq missiyası demək idi. Şair, ədəbiyyatşünas, publisist, professor Qasım Qasımzadə belə yazarlardan idi. Onun poeziyası əsrlərlə azadlığa tamarzı qalan xalqın duyğu-düşüncəsinin ifadəsi kimi səslənir.

Qasım Xansuvar oğlu Qasımzadə 23 iyun 1923-cü ildə indiki Qubadlı rayonunun Xocamsaxlı kəndində dünyaya göz açıb. Ata-babası əslən Zəngəzur mahalından (Qarakilsə kəndi) olub. Ailə 1918-ci ildə Azərbaycanın Zəngəzur mahalında erməni quldurlarının bu elin köklü sakinlərinə qarşı qırğınlar törətdiyi vaxt Qubadlıya pənah gətirib.

Qasım orta təhsilini başa vurub Şəki Pedaqoji Texnikumuna qəbul olunur. Məzun olduqdan sonra Kəlbəcərdə orta məktəb müəllimi, Yevlax Rayon Xalq Maarifi Şöbəsində metodist işləyir. Ali təhsil almağı qarşısına məqsəd qoyan gənc Qasım 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirir.

Ədəbi yaradıcılığa da həmin illərdə başlayır, şeirlər qələmə alır. O həm də elmə maraq göstərir. Azərbaycan Elmlər Akademiyasının aspiranturasında oxuyur. Ancaq insanların keçmişini qurdalayan, ataya görə övladı, övlada görə atanı cəzalandıran sovet rejimi Qasım Qasımzadəni də nəzarətə götürür. Təqiblərə məruz qalmasının səbəbi babası Şahsuvar bəyin vaxtilə Xalq Cümhuriyyətində məmur işləməsi idi. Buna görə onu aspiranturadan çıxarmaq istəyirlər. Eyni əsasla xalq deputatı olan anası Arəstə xanım da mandatdan məhrum edilir. Lakin o dövrdə Ali Sovetin sədri olan Nəzər Heydərov onu müdafiə edir, gənc tədqiqatçıya qarşı qaldırılan məsələyə xitam verilir.

Qasım Qasımzadə “Ədəbiyyat və incəsənət” qəzetində işə düzəlir, dövri mətbuatda şeirləri, ədəbi-tənqidi məqalələri dərc olunur. 1957-1963-cü illərdə həmin qəzetin redaktoru kimi fəaliyyət göstərir. Sonra Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutuna qayıdır. Sovet ədəbiyyatı tarixi şöbəsinin müdiri vəzifəsində çalışır. Onlarla elmlər namizədi (fəlsəfə doktoru) və elmlər doktorunun yetişməsində əmək sərf edir.



Araşdırmalardan məlum olur ki, Qasım Qasımzadənin elmi və ədəbi yaradıcılığı həmişə bir-birini tamamlayıb. Onun poeziyasında torpağa məhəbbət, bahar təravəti duyulub. Mərhum ədəbiyyatşünas, tənqidçi, professor Yaşar Qarayev yazırdı: “Qasım Qasımzadə şeirlərini ürək qanı ilə bənövşə yarpağına yazırdı. Onun şeirlərini Azərbaycan haqqında yazılmış ən yaxşı şeirlər sırasına daxil etməyə haqq verən də budur”.

Şairin mətbuatda ilk şeiri 1944-cü ildə “Kommunist” qəzetində dərc edilib. “Vəfasız olmaz” adlı həmin şeir oxucu marağına səbəb olur. Bundan ruhlanan gənc şair böyük səylə çalışır. “Bizim kənd” adlı ilk kitabı 1951-ci ildə “Uşaqgəncnəşr”də çapdan çıxır. Sonrakı illərdə “Ürək döyüntüləri”, “Son görüş”, “Nəğməli ürəklər”, “Bənövşə yarpağı”, “İsmət”, “Aşıq gördüyünü çağırar”, “Getdim, gördüm, düşündüm”, “İnsan min il yaşardı”, “Keçmə namərd körpüsündən”, “Dağlar buraxmır məni”, “Daşdan keçən söz”, “Səndən ayrılalı”, “Ədəbiyyatımız, mənəviyyatımız” və s. kitabları işıq üzü görüb. Şeirləri bir sıra xarici dillərə tərcümə edilib, Polşa, Bolqarıstan, Türkiyə, İraq, İran və s. ölkələrdə çap olunub.

Qasım Qasımzadə qələmini tərcümə sahəsində də sınayıb. M.Tursunzadənin “Hindistan balladası”, “Asiyanın səsi”, M.Mirşəkərin “Qızıl qışlaq”, İ.Noneşvilinin “Qonaq gəlin Gürcüstana” əsərlərini ruscadan Azərbaycan dilinə tərcümə edib.

Həyatın çətin sınaqlarından keçən şair təmiz adını və şəxsiyyətini həmişə qorumağa çalışıb. Təbiətindəki keyfiyyət onun yaradıcılığında da diqqəti cəlb edir.

*Səndən ayrılanda, dağlar, cavandım,*
*İndi görüşünə qoca gəlmişəm.*
*Qayğılar üstümə düşdü – talandım,*
*Üzümə üz tutub borca gəlmişəm.*

Onun kövrək qəlbinin dərinliyindən gələn poetik düşüncələrində bir kədər-hüzn duyulur. Bu hüznü ixtiyarı öz əlində olmayan xalqının taleyi ilə bağlı idi. Qasım Qasımzadəni gənclik illərindən Vətənin müstəqillik və azadlıq problemləri düşündürüb. H.Cavidin azadlıq haraylayan şeirlərini tez-tez dilə gətirib. Türk şairlərindən Ə.Hamid və T.Fikrətin kitablarından söhbət açıb. Hətta Osmanlı ləhcəsində yazdığı bir şeiri çəkinmədən müəlliminə oxuyur. “Marş irəli, ey türk əsgəri!” misraları ilə bitən bu bədii parçanı dinləyən müəllim deyir: “Başını bəlaya salma, yazıqsan!”.

“Ədəbiyyat və incəsənət” qəzetinin redaktoru olduğu vaxtlarda Xəlil Rzanın məşhur “Azadlığı istəmirəm...” şeirini “Afrikanın səsi” adı altında dərc edir. Rəsul Rzanın “Qızılgül olmayaydı” (Mikayıl Müşfiqə həsr olunub) poemasını da qorxmadan “Ədəbiyyat və incəsənət” qəzetində çap edib.

Qasım Qasımzadə “Günəş”, “Neyin əfsanəsi”, “Çərkəz oğlu” əsərlərində xalqının azadlıq arzularından ürəkağrısı ilə söz açıb. Şeirləri və publisistik məqalələri ilə düşmənə layiqli cavablar verib. İnsanları vətən, xalq və azadlıq uğrunda mübarizəyə səsləyib. “Çərkəz oğlu” əsərində çərkəzlə qarşılaşan rus generalı deyir: “Sultan sizi həmişəlik bizə bağışlayıb. Gəlin xoşluqla qılıncınızı yerə qoyun və təslim olun. Bundan hiddətlənən çərkəz oğlu generala deyir: “Çərkəz oğlu nə çara, nə də ki, sultana qul olmaz. Qılıncını da qınına qoymaz. Əgər uçan quşu tuta bilsən, onda məni də tuta bilərsən...”.

Sadəlik, təbiilik və müdriklik mücəssəməsi, şair qəlbli alim, ədəbiyyat vurğunu Qasım Qasımzadə 28 iyul 1993-cü ildə vəfat edib.

**Savalan Fərəcov**

# Kinoya yaraşan sima

Kino xarakterləri sevir. Ekran obrazlarını milyonlara sevdirənləri də məşhurlaşdırır, sevdirir. Azərbaycan kinosunda özünəməxsus yaradıcılıq tərzinə görə seçilən, sevilən aktyorlarımızdan biri də respublikanın Əməkdar artisti Tofiq Mirzəyevdir. Yaradıcılıq filmoqrafiyası zəngin olan aktyor artıq neçə illərdir doğma Bakıdan uzaqda yaşasa da, həmkarları da, kinosevərlər də onu unutmur. Tanınmış aktyorun anadan olmasının 90 illiyi ərəfəsində onun sənət dünyasını göz önündə canlandırmaq, eləcə də həmkarlarının xatirələrində bir daha oxuculara tanıtmaq istədik.

Mövzuya keçməzdən öncə yubilyarı – “Mosfilm”, “Dovjenko” studiyalarında istehsal olunan filmlərdə rol alan, “Azərbaycanfilm” Kinostudiyasında 27 filmdə müxtəlif xarakterli obrazlar yaradan, 10-dan artıq sənədli televiziya filminin ssenari müəllifi və rejissoru, 1 animasiya filminin ssenari müəllifi olan Tofiq Mirzəyevi təbrik edir, cansağlığı arzulayırıq.

## İstedadlı ifaçı

İstedadlı doğulmaq xoşbəxtlikdirsə, onu məhsuldar iş əmsalına çevirmək ikiqat xoşbəxtlikdir. Yaddaşımızda dramatik rollar ifaçısı kimi qalan Tofiq Mirzəyev, seçdiyi musiqi sənətini yarımçıq qoymağa məcbur olsa da, taleyinə yazılan məşhurluq məsuliyyətini yaşamağa, sənət uğurunu tamamlamağa nail olur.

Azərbaycan Dövlət Konservatoriyasının klarnet sinfini bitirən Tofiq Mirzəyev bir müddət ifaçı kimi tanınaraq görkəmli dirijor və bəstəkar Niyazinin rəhbərliyi altında Dövlət Simfonik Orkestrinin tərkibində çıxış edir. Hələ gənc yaşlarından klassik musiqi ilə yanaşı, cazla da maraqlanır. Azərbaycanın məşhur cazmenləri ilə caz musiqiləri də ifa edir, onlarla birlikdə bir sıra ölkələrdə qastrol səfərlərində olur. Lakin ifaçılığı səhhətində (ağciyər) müəyyən fəsadlar verdiyinə görə həkimlər ona musiqidən ayrılmağı məsləhət görür. Belə olan halda istedadlı insan kinoda yaradıcılıq uğurunu davam etdirir.

## Musiqidən kinoya

Tofiq Mirzəyev kinoya da böyük sevgi ilə gəlir. Moskvada Mərkəzi Televiziyanın rejissorluq kurslarını bitirdikdən sonra Bakıya qayıdaraq Azərbaycan Televiziyasında bir sıra portret filmlər çəkir, həmçinin görkəmli kinorejissorların quruluş verdiyi filmlərdə (Rüfət – “Uşaqlığın son gecəsi”, əcnəbi müğənni – “Ən vacib müsahibə”, Teymur – “İstintaq”, aparıcı – “Üzeyir ömrü”, Tahirov – “Mezozoy əhvalatı” və s.) xarakterik rollar yaradır. Aktyorun hər zaman diqqət mərkəzində olan kino fəaliyyətini həmkarlarının bələdçiliyi ilə izləyirik.

***

Əməkdar mədəniyyət işçisi, bir çox filmdə ikinci rejissor kimi çalışan **Akif Rüstəmov**: “Tofiq Mirzəyevin kinoda debüt rolu görkəmli kinorejissor Arif Babayevin quruluş verdiyi “Uşaqlığın son gecəsi” (1968) filmindəki Rüfət obrazıdır. Ariflə Tofiq yaxın dost idilər. Həmin vaxtlarda da Tofiq musiqiçi kimi çox tanınırdı, əsl incəsənət adamı idi.



Ziyalılığına, istedadına görə şəhərin sayılıb-seçilənləri sırasında idi. Etiraf edim ki, ilk dəfə onu görəndə qürurlu, mədəni davranışı, xarici aktyorlara bənzəyən siması mənə çox xoş təsir bağışladı. Həmin illərdə çəkilən filmlərdə peşəkar aktyorlarla yanaşı, mövzuya uyğun gələn insanları da çəkirdilər. Arif müəllim də bu üsuldan istifadə edirdi. Məsələn, sözügedən filmdə Xosrov Abdullayevi Moskvadan (aktyor Siyavuş Şəfiyevin məsləhəti ilə) Məcnun roluna dəvət etdi. O, Moskva Dövlət Sirkində jonqlyor, illüzionist işləyirdi, Siyavuş Şəfiyev isə həmin vaxtlarda





Bakı Sirkində fəaliyyət göstərirdi. Sürücü rolunu canlandıran Rafiq Tağıyev mağaza müdiri, Tofiq Mirzəyev isə tanınmış musiqiçi idi. Göründüyü kimi, fərqli peşə sahiblərinin və Tofiq Mirzəyevin inandırıcı ifası filmin uğuruna uğur qatdı.

Tale elə gətirdi ki, Tofiq Mirzəyevlə “Nəsimi” filminin çəkilişləri zamanı da görüşdük. Görkəmli kinorejissor Həsən Seyidbəyli Tofiqi filmlərdən tanıyırdı və Dövlət bəy roluna onu sınaq çəkilişi etmədən təsdiqlədi. Filmin çəkilişlərinə hazırlıq dövründə Tofiq müəllimlə iki ay məşq etdi. Çəkilişlərdən əvvəl onun həyəcan keçirdiyi hiss olunurdu, amma bunu kamera qarşısında göstərmirdi. Bir kadra üç dubldan çox çəkilmirdi. İşinə məsuliyyətlə yanaşdığından Həsən müəllim rol üçün nə lazım idisə Tofiq müəllimdən alırdı, həmişə ondan razı qalırdı.

Bəlkə də o, musiqiçi olduğu üçün təbiət etibarilə sakit insandır. Yadımdadır, fasilə zamanı həmişə musiqi haqqında danışırdı. Onun bir dəfə də olsun səsini qaldırdığını, nədənsə narazı qaldığını görməmişəm...”.

***

Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi, kinorejissor **Oleq Səfərəliyev**: “Tofiq Mirzəyev peşəkar aktyor, gözəl dost və gözəl insandır. Onu quruluş verdiyim “Əlvida, cənub şəhəri” filmində çəkmişəm. Baxmayaraq ki, birgə işlədiyimiz vaxtdan 16 il ötür, amma yenə də işimiz haqqında gözəl xatirələrim, düşüncələrim var. Onu da qeyd edim ki, Tofiq Mirzəyev hələ sovet dönəmində çəkilən filmlərimizdə kinomuzun ziyalı simasını tamaşaçılara tanıtdıran aktyordur və hər bir işinə həmişə böyük məsuliyyətlə yanaşır”.

***

Əməkdar incəsənət xadimi, kinooperator **Kənan Məmmədov**: “Gözəl aktyor, gözəl insan, əsl ziyalı Tofiq Mirzəyevlə çoxdan tanışam və dostluğumuz hələ də davam edir. O, hazırda İsraildə yaşayır, amma Bakıya gələndə görüşürük. Tofiq çox maraqlı insandır. Onunla ünsiyyətdə olmaq mənim üçün xoşdur. Caz musiqisindən danışanda bu sahəyə aid olan bir çox məlumatları ondan alırıq. Mən Tofiqi iki filmdə – kinorejissorlar Rasim Ocaqovun “Təhminə” və Tofiq İsmayılovun “Xüsusi vəziyyət” filmlərində çəkmişəm. Tofiq Mirzəyev bir aktyor kimi materialı çox öyrənən, ondan tələb olunan dramaturji materialın incəliyini son dərəcə başa düşən aktyordur.

“Təhminə” filmində Muxtar obrazı həcm etibarılə kiçik olsa da, aparıcı roldur. Filmdə Tofiqlə çox gözəl çəkilişlərimiz oldu və onun oynadığı epizod filmdə baxımlı epizodlardan biri kimi alındı.

Ümumiyyətlə, Tofiq Mirzəyev çox dəqiq insandır. Çəkilişə gələndə ondan, bir dəfə də olsun, mətni bilmirəm sözünü eşitmədim. Dəqiq bilirdi ki, ondan nə tələb olunur və qısa məşqdən sonra da çəkilişə başlayırdıq. Heç vaxt çəkilişlərə gecikməzdi, vaxtında gəlib qrimlənirdi, çəkilişlərə başlayardıq. Buna görə də onunla işləmək mənim üçün maraqlı idi...”.

## Heç vaxt özünü məşhur aktyor kimi aparmırdı

Əməkdar artist **Elxan Yunisin** sənətkar haqqındakı fikirləri düşüncələri zənginləşdirir: “Tofiq müəllimlə “Kənar adamlar” filminin çəkilişləri zamanı görüşdüm. Mən həmin filmdə baş rollardan birini (Ruslan) canlandırırdım, o isə vəkil rolunu oynayırdı. O, tanınmış, hörmətli bir aktyor idi, mənsə ilk dəfə idi kamera qarşısında dururdum. Belə məşhur aktyorla tərəf-müqabili olmaq mənim üçün həm şərəfli idi, həm də məsuliyyətli. Tofiq müəllimlə ancaq çəkiliş meydançasında görüşsək də, insani keyfiyyətlərinə də bələd olurdum. Heç vaxt özünü məşhur aktyor kimi aparmırdı. Sadə, səmimi xüsusiyyətləri mənə rahatlıq gətirirdi. Mülayim, səmimi keyfiyyətlərinə görə də onunla işləmək asan idi. Tofiq Mirzəyev ünsiyyətcil, rahat insan, tərəf-müqabili kimi isə olduqca peşəkar aktyordur”.

## İndi də onu çəkmək olar

Kənan müəllimin bələdçiliyi ilə davam edirik: “Xüsusi vəziyyət” filmi gərgin süjetli bir filmdir. Baş rollarda Siyavuş Aslan və Tofiq Mirzəyev çəkiliblər. Tofiq həmin filmdə mühəndis Dəmir rolunu oynayır. Film şəxsi həyatda baş verən romantik münasibətlərlə yanaşı, dramatik situasiyalarla dolu iş həyatının çətinliyini də əks etdirir. Filiz kombinatında qəza baş verir. Hər iki qəhrəman çətin vəziyyətə düşür, tuneldə qalmağa məcbur olurlar. Fövqəladə vəziyyətdən çıxış yolunu axtardıqca da fərdi xüsusiyyətləri ortaya çıxır. Beləliklə də, onların arasında olan ziddiyyətli münasibətlərə, həyat mövqelərinə aydınlıq gətirilir.

Natura çəkilişləri əsasən Daşkəsəndə olub. Ayyarım kino ezamiyyətində olmuşuq və Tofiq Mirzəyevlə əsasən o zaman dostlaşdıq. Onunla bağlı çəkilişlər əsasən yerin altında, tuneldə oldu. Kadrlardan da göründüyü kimi, orda aktyorlar üçün, həmçinin Tofiq Mirzəyev üçün müəyyən çətinliklər var idi. Amma buna baxmayaraq o, həmişə deyirdi ki, siz narahat olmayın, nə etmək, necə etmək lazımdır deyin, mən hazıram.

Tofiq mənim xətrimi çox istəyirdi, bunu da həmişə qeyd edirdi. Biz onunla rol və epizodlar haqqında uzun-uzun söhbət edirdik. Həmişə mənə deyirdi ki, Kənan, mənə aid olan kadrların, epizodların çəkilməsində mənə çox kömək edirsən. Tunel dekorasiyasının müəyyən bir hissəsini Bakıda metronun tikilən stansiyalarının birində çəkdik, qəza səhnəsini isə kinostudiyanın pavilyonunda.

Tofiqin Siyavuş Aslanla da maraqlı münasibəti var idi. Onlar bir-birlərinə çox hörmət edirdilər. Aralarında olan xoş münasibətin prototiplərə heç bir aidiyyəti yox idi. Çünki hərəsi öz rolunun şəxsində müəlliflərin ideyasını daşıyırdı.

Tofiq Mirzəyev haqqında çox söz demək olar. Təəssüf edirəm ki, mən onunla ancaq iki filmdə işlədim. 90 yaşını qeyd edən sənət dostuma cansağlığı arzulayıram. Düşünürəm ki, cazibəli fakturasına, sifət quruluşuna, özünəməxsus jestlərinə görə elə indi də onu çəkmək olar...”.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

# Xatirələrimizdəki oyuncaqlar sənət əsərlərində

Bu yaxınlarda ənənə halını almış rəsm sərgilərindən fərqli, orijinal bir ekspozisiya ilə tanış oldum. Hər zaman sənət əsərlərinin də ruhu olduğuna, onların oyuncaq olmadığına inanmışam. Amma bu o demək deyil ki, oyuncaqlar sənət əsəri ola bilməz. Xətai Sənət Mərkəzinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə keçirilən “Xatirələrdə qalan oyuncaqlar” uşaq yaradıcılıq müsabiqəsi bu ideyaya bariz nümunədir.



Cəmiyyət ictimailəşmiş üzvlər vasitəsilə öz gələcəyini təmin edir, zamanla davamlılıq qazanır. Oyunlar və oyuncaqlar bəşəriyyətin ən köklü ünsiyyət və qarşılıqlı əlaqə vasitəsi kimi məna qazanmışdır. Ancaq oyunun ən mühüm elementi olan oyuncaq sənayeləşmə nəticəsində əmtəə halına gəldi. Fərdlər hər zaman oyunun aktiv subyekti olduqları halda ənənəvi kommunikasiya texnologiyalarının, xüsusən də televiziya və kinonun təklif etdiyi oyunlar qarşısında passiv obyektə çevrildilər.

Son dövrlərdə Xətai Sənət Mərkəzi uşaqların yaradıcı, intellektual inkişafına töhfə verən, respublikamızın şəhər və rayonlarında fəaliyyət göstərən məktəb, lisey və dərnəklərin iştirakı ilə çoxsaylı müsabiqə və sərgilərə təşkilatçılıq edir. Bu baxımdan “Xatirələrdə qalan oyuncaqlar” müsabiqəsi uşaqların istedadlarını, həmçinin intellektual bacarıqlarını, onların potensialını kəşf etmək üçün yeni fürsətə çevrildi desək, yanılmarıq.

Bu ilin yanvarında elan edilən müsabiqənin mart ayında keçirilən yekun sərgisində 900-ə yaxın nümunə (oyuncaq) yer alıb. Xatırladaq ki, Xətai Sənət Mərkəzi və Azərbaycan Dövlət Rəsm Qalereyasının layihəsi olan müsabiqənin keçirilməsinə Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Bakı Dövlət Sirki dəstək göstərib. Bu cür müsabiqə və sərgilərin keçirilməsi, uşaqların yaradıcı qabiliyyətini, sosial aktivliyini artıran təqdirəlayiq addımlar olmaqla bərabər, həm də yeni ənənələr formalaşdırır, dəyərlər yaradır.

**Elçin Hüseynli**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının şöbə müdiri**

## Xatirə təqvimi — 11-15 iyun

### Azərbaycan

**11 iyun 1892** – Xalq artisti, opera müğənnisi Aleksandr Aleksandroviç Drozdov (1892 – 15.6.1968) Omskda (Rusiya) anadan olub. 1935-ci ildən Azərbaycan Opera və Balet Teatrında çalışıb. Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.

**11 iyun 1913** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökümə Abbasəli qızı Qurbanova (1913 – 2.11.1988) Bakıda doğulub. 1938-ci ildən ömrünün sonunadək Akademik Milli Dram Teatrında çalışıb, xarakterik obrazların parlaq ifaçısı olub. “Almaz”, “Onu bağışlamaq olarmı?”, “İnsan məskən salır” filmlərində çəkilib.

**11 iyun 1923** – Əməkdar rəssam Mahmud Əzizağa oğlu Tağıyev (1923-2001) Bakıda anadan olub. Sovet tikililərini təsvir edən tabloların, portret janrında (“Dədə Qorqud”, “Səməd Vurğun”) əsərlərin müəllifidir.

**11 iyun 2020** – Xalq artisti, xanəndə Teymur Ağaxan oğlu Mustafayev (10.4.1939 – 2020) vəfat edib. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**12 iyun 1928** – Xalq yazıçısı İsa Mustafa oğlu Hüseynov (Muğanna; 1928 – 1.4.2014) Qazax rayonunun Muğanlı kəndində (hazırda Ağstafa rayonu) doğulub. Tarixi və fəlsəfi romanları (“Məhşər”, “Yanar ürək”, “İdeal” və s.) yazıçıya böyük şöhrət gətirib. “Ulduzlar sönmür”, “Tütək səsi”, “Nəsimi” və s. filmlərin ssenari müəllifidir.

**12 iyun 1932** – Xalq artisti Hacıbaba Ağarza oğlu Bağırov (1932 – 4.10.2006) Bakıda anadan olub. 1962-ci ildən Musiqili Komediya Teatrında çalışıb, 1996-2006-cı illərdə teatra rəhbərlik edib. Çəkildiyi filmlər: “Ulduz”, “Qanun naminə”, “Onun bəlalı sevgisi”, “Alma almaya bənzər” və s.

**12 iyun 1977** – Əməkdar artist Məmmədkəbir Hacı oğlu Kərimov (1906-1977) vəfat edib. Şəki Dövlət Dram Teatrının aktyoru olub.

**13 iyun 1927** – Tanınmış kamança ifaçısı, Əməkdar artist Tələt Soltan oğlu Bakıxanov (1927 – 30.5.2000) Bakıda anadan olub. “O olmasın, bu olsun” filmində çəkilib.

**13 iyun 1944** – Əməkdar artist, tanınmış arfa ifaçısı Çiçək Məmmədhüseyn qızı Rzayeva (1944 – 15.9.2021) Bakıda doğulub. 50 ildən çox Azərbaycan Dövlət Simfonik Orkestrində arfa ifaçısı olub.

**13 iyun 1993** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Məmməd Əli oğlu Əlili (7.11.1898 – 1993) vəfat edib. “Ögey ana”, “Dağlarda döyüş” və s. filmlərin 2-ci rejissoru olub, “Dəli Kür”, “Nəsimi” filmlərində çəkilib.

**14 iyun 1888** – İctimai-siyasi xadim, publisist Camo bəy Hacınski (1888-1942) anadan olub. Azərbaycan Xalq Cümhuriyyəti hökumətində nazir postu tutub. Sovet dövründə mədəniyyət və maarif sahəsində çalışıb, repressiya olunub.

**14 iyun 1902** – İlk azərbaycanlı heykəltəraş qadın Zivər Nəcəfqulu qızı Məmmədova (1902 – 22.4.1980) Bakıda anadan olub. Görkəmli mədəniyyət xadimlərinin (Ü.Hacıbəyli, Ə.Əzimzadə), hərbçi və əmək qəhrəmanlarının heykəl və büstlərini yaradıb.

**14 iyun 1926** – Xalq artisti, tarzən Həbib Əbdülhüseyn oğlu Bayramov (1926 – 15.8.1994) anadan olub. 1941-ci ildən Əhməd Bakıxanovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında çalışıb, 1973-cü ildən kollektivin bədii rəhbəri olub.

**15 iyun 1918** – Bəstəkar, Xalq artisti Hacı Dadaş oğlu Xanməmmədov (1918 – 7.4. 2005) Dərbənddə doğulub. “Bir dəqiqə” operettasının, populyar mahnıların (“Getmə, amandı”, “Qurban olduğum” və s.) müəllifidir. Filarmoniyanın direktoru, Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri olub.

**15 iyun 1924** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 1924 – 14.9.1992) Qazax rayonunda doğulub. “Bahar gələndə”, “Söylə, yadındamı?”, “Qocalan deyiləm” və s. kitabların müəllifidir. Azərbaycan Aşıqlar Birliyinin yaradıcısı və rəhbəri (1984-1992) olub.

**15 iyun 1933** – Şair Zülfüqar Qodmanlı (Zülfüqar Mənsur oğlu Əliyev; 1933-1998) Masallı rayonunun Qodman kəndində anadan olub.

**15 iyun 1934** – Şair, ədəbiyyatşünas Hüseyn Kürdoğlu (Hüseyn Həsən oğlu Alışanov; 1934-2003) Laçın rayonunun Mollaməhmədli kəndində doğulub.

**15 iyun 1945** – Xalq artisti Amaliya Əliş qızı Pənahova (1945 – 8.11.2018) Gəncədə doğulub. 1964-cü ildən Akademik Milli Dram Teatrında çalışıb. 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradıb. “Arxadan vurulan zərbə”, “Qərib cinlər diyarında”, “Babək”, “Gözlə məni”, “Cavad xan” və s. filmlərdə çəkilib. Milli Məclisin deputatı (2000-2005), Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

### Dünya

**11 iyun 1864** – Alman bəstəkarı, dirijor Rixard Ştraus (Richard Strauss; 1864-1949) anadan olub.

**11 iyun 1899** – Yapon yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1968) Yasunari Kavabata (1899-1972) anadan olub. “Dağın naləsi”, “Köhnə paytaxt” romanlarının müəllifidir.

**11 iyun 1910** – Fransız dəniz səyyahı, fotoqraf, ixtiraçı Jak İv Kusto (Jacques-Yves Cousteau; 1910-1997) anadan olub.

**12 iyun 1921** – İspan rejissoru Luis Qarsia Berlanqa (Luis Garcia Berlanga Marti; 1921-2010) anadan olub. Satirik kinonun görkəmli nümunələri olan “Xoş gəlmisiniz, cənab Marşall”, “Plasido”, “Cəllad” və s. filmləri çəkib.

**13 iyun 1865** – İrland şairi və dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1923) laureatı Vilyam Yits (William Butler Yeats; 1865-1939) anadan olub.

**14 iyun 1811** – Amerika yazıçısı Harriet Biçer-Stou (Harriet Elizabeth Beecher-Stowe; 1811-1896) anadan olub. “Tom dayının daxması” romanı 20-dən çox dilə tərcümə olunub.

**14 iyun 1835** – Yəhudi əsilli pianoçu və dirijor, pedaqoq Nikolay Qriqoryeviç Rubinşteyn (1835-1881) anadan olub. Moskva Konservatoriyasının qurucularından biridir.

**15 iyun 1843** – Norveç bəstəkarı, dirijor Edvard Qriq (Edvard Hagerup Grieg; 1843-1907) anadan olub. “Per Günt” süitası, 600-dən çox mahnı və romansın müəllifidir.

**15 iyun 1946** – Məşhur yunan müğənnisi Demis Russos (Artemios Ventouris Roussos; 1946 – 25.1.2015) Misirin İsgəndəriyyə şəhərində doğulub.

**Hazırladı: Vüqar Orxan**

## Milli İncəsənət Muzeyi balacaları dəvət edir

Azərbaycan Milli İncəsənət Muzeyinin təsviri sənətimizin ölməz korifeylərinin yaradıcılığını yaşatmaq və yeni nəslə tanıtmaq məqsədilə gerçəkləşdirdiyi “Bədii lövhələr” layihəsinin iyun ayı üzrə qəhrəmanı Xalq rəssamı Səttar Bəhlulzadədir.

Muzey ay ərzində ustad dərsi proqramında balacaları Səttar Bəhlulzadənin “Naxçıvan dağları” tablosu ilə yaxından tanış olmağa və əsərin “step by step” imitasiyasını yaratmağa dəvət edir.

Uşaqlar ustad dərsində fərdi üslubu və orijinal dəsti-xətti ilə seçilən sənətkarın yaradıcılığını tədqiq edəcək və rəssamın bənzərsiz təbiət lövhələri ilə tanış olacaq, isti-soyuq rəngləri tanıyacaq, yeni rənglər əldə etməyi öyrənəcək, eləcə də muzeyin ekspozisiyasında sərgilənən sənət əsərlərini görmək fürsəti əldə edəcəklər.

Muzey bütün azyaşlı sənətsevərləri “Bədii lövhələr” layihəsində iştirak etməyə dəvət edir. İştirak üçün öncədən qeydiyyatdan keçmək xahiş olunur.

# Kamançada "Sevgi haqqında"

## Məşhur ifaçı Mark Eliyahu Bakıda çıxış edəcək

Dünyaca məşhur kamança ifaçısı Mark Eliyahu yenidən Azərbaycana gəlir. İsrailli musiqiçi "Sevgi haqqında" ("About love") adlı turne çərçivəsində iyunun 19-da Heydər Əliyev Sarayında çıxış edəcək.

Musiqiçi bu dəfə də virtuoz ifası ilə xüsusi ab-hava yaradaraq tamaşaçılara gözəl sənət zövqü bəxş etmək niyyətindədir.

Mark Eliyahu 1982-ci ildə Mahaçqalada (Dağıstan) yəhudi ailəsində doğulub. 1989-cu ildə ailəsi İsrailə köçüb. Musiqi məktəbində skripka ixtisası üzrə təhsil alıb, eyni zamanda Şərq musiqi alətlərinə (saz, kamança) böyük maraq göstərib. 16 yaşında ilk dəfə ustad sənətkar Habil Əliyevin ifasını dinlədikdən sonra kamançada peşəkar şəkildə ifa etməyi öyrənmək qərarına gəlir. Azərbaycana gələrək Əməkdar artist Ədalət Vəzirovun rəhbərliyi ilə kamança sənətini öyrənir, Xalq artisti Habil Əliyevin ifalarını canlı dinləyir, ondan da məsləhətlər alır. Musiqiçi bu günə qədər Habil Əliyevin ona hədiyyə etdiyi kamançada ifa edir.




Mark Eliyahu təkcə musiqiçi deyil, həm də multikulturalizmin və sülhün təmsilçisidir. Onun yaradıcılığı poetikliyi və zərifliyinə görə fərqlənir. O öz incə musiqisi, həmçinin fərqli ifaçılıq tərzi ilə coğrafi sərhədləri və dil baryerlərini, eləcə də dini fərqləri aradan qaldıraraq, dünyaya nikbin mesaj çatdırır. Sevginin ümumbəşəri dili olan musiqi vasitəsilə M.Eliyahu insanların qəlbinə yol tapa bilib.

# Nizaminin "Leyli və Məcnun"u Frankfurtda təqdim olunub

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Almaniyada işıq üzü görmüş "Leyli və Məcnun" əsəri Frankfurt şəhərindəki "Veltenlezer" kitab evində təqdim olunub. Kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən nəşr edilib.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, tədbiri giriş sözü ilə tanınmış alim, Vürtsburq Universitetinin professoru Ziqlinde Hartman açaraq Nizami Gəncəvinin zəngin ədəbi irsindən, dünya ədəbiyyatına bəxş etdiyi əsərlərin dərin fəlsəfəsindən danışıb.

Mayns Universitetinin professoru, tanınmış türkoloq-alim Hendrik Boeshoten Nizami yaradıcılığının özünəməxsusluğu, ideya və məna aktuallığı baxımından bu günlə səsləşməsi barədə fikirlərini açıqlayıb və tədbir iştirakçılarının mövzu ilə əlaqədar suallarını cavablandırıb.



Naşir Hans Jürgen Maurer çıxışında dahi şairin milli mənsubiyyəti ilə bağlı əsl həqiqətlərin dünyaya yayılmasında bu səpkili layihələrin əhəmiyyətini qeyd edib: "Əsl həqiqət isə ondan ibarətdir ki, Nizami Azərbaycanın hazırda ikinci böyük şəhəri olan Gəncədə anadan olub, heç vaxt doğma şəhərindən kənara çıxmayıb, yalnız orada yazıb-yaradıb və elə Gəncədə də dəfn olunub. Mən özüm də Azərbaycanda olarkən dahi şairin Gəncədəki məqbərəsini ziyarət etmişəm".

Tədbirin sonunda alman aktyor Stefan Bittoun "Leyli və Məcnun" poemasından parçalar söyləyib.

"Leyli və Məcnun" poemasını alman dilinə tanınmış mütərcim Rudolf Qelpke tərcümə edib. Lakin ilk dəfə 1963-cü ildə Sürixdə işıq üzü görmüş kitabda əsərin müəllifi "fars şairi" kimi qeyd olunub. Əsərin 2021-ci ildə Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən Almaniyada işıq üzü görmüş yeni nəşri ilə "Leyli və Məcnun" alman oxucu auditoriyasına Azərbaycan şairi Nizaminin əsəri olaraq təqdim edilib.

# Bolqarıstanda Azərbaycan mədəniyyəti gecəsi



Bolqarıstanın qədim şəhərlərindən olan Sozopolda "Soleil" 11-ci Beynəlxalq Frankofoniya Festivalı çərçivəsində Azərbaycan mədəniyyəti gecəsi təşkil edilib.

Festival çərçivəsində Bakı Slavyan Universitetinin Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan dili və mədəniyyəti mərkəzi tərəfindən şəhərdəki Etnoqrafiya muzeyində "Odlar yurdu bolqar uşaqlarının gözü ilə" adlı rəsm sərgisi açılıb.

Tədbiri giriş sözü ilə açan festivalın direktoru Aleksandrina İsaylova Azərbaycanın bir neçə il ardıcıl olaraq festivalda aktiv iştirak etdiyini qeyd edərək Azərbaycanı əks etdirən sərginin festivalın qonaqları arasında çox böyük maraq doğurduğunu söyləyib.

Sofiya Universitetinin nəzdindəki Azərbaycan dili və mədəniyyəti mərkəzinin müdiri Sofiya Şıqayeva-Mitreska məlumat verib ki, rəsm sərgisində ötən il Azərbaycan müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibətilə təşkil edilmiş müsabiqədə iştirak etmiş uşaqların əl işləri nümayiş olunur. Qeyd olunub ki, bolqar uşaqlar Azərbaycanın rəngarəng



adət-ənənələrini, mədəniyyətini ənənələrini rəsmlərdə əks etdirməyə çalışıblar. Mərkəzin müdiri bu il Azərbaycan və Bolqarıstan arasında diplomatik münasibətlərin 30 illik yubileyinin qeyd edildiyini də diqqətə çatdırıb.

Bildirək ki, Bolqarıstanın Sozopol şəhərində Frankofoniya festivalı 2011-ci ildən keçirilir və müxtəlif ölkələrin mədəniyyətini bolqar xalqına, xarici qonaqlara nümayiş etdirir.

# Şanxay Beynəlxalq Film Festivalı ləğv edilib

## Çində pandemiya geri qayıdır

Dünyanın böyük bir hissəsində pandemiyanın tədricən başa çatdığının elan olunduğu, həyatın normal axara qayıtdığı, o cümlədən beynəlxalq festival və müsabiqələrin ənənəvi formatda təşkil olunduğu bir vaxtda Çində proseslər yenidən əks istiqamətdə getməyə başlayıb.

Çinin ən nüfuzlu kino forumu – Şanxay Beynəlxalq Film Festivalı koronavirus pandemiyasının yenidən baş qaldırması səbəbindən ləğv edilib. Məlumat verilir ki, sayca 25-ci Şanxay Beynəlxalq Film Festivalı bir il sonraya – 2023-cü ilə ertələnib.

"Yeni koronavirus epidemiyasının təsiri ilə əlaqədar təşkilat komitəsi 2022-ci ilin iyun ayına planlaşdırılan 25-ci Şanxay Beynəlxalq Film Festivalının növbəti ilə keçirilməsinə qərar verib", - deyə təşkilatçılar bildirib.

Maraqlıdır ki, Şanxay kinofestivalı hətta pandemiyanın qızğın dövrü sayılan 2020-ci ildə belə ləğv olunmamış və proqramı ixtisar edilərək, həmçinin tədbirlərin bir qismi onlayn rejimdə olsa da, 25 iyul – 2 avqust tarixlərində keçirilmişdi. Bu, COVİD-19 pandemiyasının ilk ilində dünya üzrə kinoteatrlarda nümayişi təşkil edilən yeganə beynəlxalq festival idi. Filmlər Şanxayın 29 kinoteatrında göstərilmişdi.

Qeyd edək ki, Şanxay Beynəlxalq Film Festivalı 1993-cü ildən keçirilir. Festivalın münsiflər heyətinə müxtəlif vaxtlarda dünya şöhrətli kinematoqrafçılar daxil olub.

**V.Kamal**

# "National Geographic" mətbəximiz haqqında

Amerikanın "National Geographic" jurnalında Azərbaycan mətbəxinə həsr olunmuş məqalə dərc olunub.

Müəllif Emili Luş yazdığı məqalədə Azərbaycan mətbəxinin yeməklərinin rəngarəngliyindən və zənginliyindən söz açır. Qeyd olunur ki, Azərbaycanı əhatə edən doqquz iqlim qurşağı insanlara çoxlu təzə məhsullar, o cümlədən şaftalı, nar, alma, əncir, zəfəran və şirin bibərlə təmin edir.


Azerbaijan: the seven dishes that define a nation
Discover a food culture underpinned by longstanding philosophies of locavorism, self-sufficiency and seasonal
BY EMILY LUSH
PUBLISHED 8 JUN 2022, 10:03 BST

Azərbaycan mətbəxinin şahı olan zəfəranla dəmlənmiş plov hər məclisin yaraşığıdır. Bununla bərabər şış kababları, dolma və soyuq salatlar da təqdim edilir. Bunları çox vaxt bir stəkan Azərbaycan şərabı və ya şərbəti, limon, şəkər, zəfəran və təzə meyvələrdən hazırlanmış təravətləndirici sərinləşdirici içki müşayiət edir. Məclislər ənənəvi olaraq bir dilim limonla içilən və armudu stəkanlarında təqdim edilən çayla tamamlanır.

Müəllif paytaxt Bakıda yeməklər içindən düşbərəni seçib. Qeyd olunur ki, düşbərə türk mənşəli yeməkdir və italyan mətbəxinin rəmzi olan tortelliniyə bənzəyir. Düşbərə ölkənin hər yerində yeyilir, lakin paytaxt Bakıda xüsusilə məşhurdur.

Daha sonra qeyd olunur ki, Lənkəranın ən məşhur qida ixracı olan ləvəngi qoz, kişmiş, soğan, sumaq, yaşıl alça və narşərabın qarışığı ilə doldurulmuş balıq və ya toyuqdan ibarətdir. Şəki bölgəsinə gəldikdə isə, müəllif pitini belə təsvir edir: "Pitinin adı onun hazırlandığı və süfrəyə verildiyi gil qabdan götürülüb". Daha sonra qeyd olunur ki, Naxçıvan bölgəsi "qovurma" adlanan yeməklə tanınır. Sürhüllü isə Qaxın dağlıq bölgəsinə aiddir.

Məqalədə həmçinin bildirilir ki, Azərbaycanın şah plovu ən azı 40 regional reseptə uyğun hazırlanır. Sonda qeyd olunur ki, hər bölgənin öz forması və içliyi ilə seçilən kətəsi var, lakin bu zəngin kalorili yeməyin ən çox sevilən növü Azərbaycanın cənub-qərbindəki Qarabağ bölgəsindən gəlir.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 633 il əvvəl...



**15 iyun 1389-cu ildə** Kosovo düzündə (indiki Kosovonun paytaxtı Priştina yaxınlığında) baş verən tarixi döyüşdə Sultan Muradın başçılığı ilə Osmanlı qoşunları serb knyazı Lazarın ordusunu məğlub edib. Döyüşdən sonra Sultan Murad serb Miloş Obiliç tərəfindən sui-qəsd edilərək öldürülsə də, bu qalibiyyət Osmanlının Balkanlarda təxminən 5 əsr sürən hökmranlığının başlanğıcı oldu.

### 226 il əvvəl...

**13 iyun 1796-cı ildə** Azərbaycanın şimal torpaqlarına yürüş edən general V.Zubovun komandanlığı altındakı rus qoşunları Bakını ələ keçiriblər. İşğal uzun çəkmədi və II Yekaterinanın ölümündən sonra taxta çıxan oğlu I Pavel ordunu geri çağırdı. Ruslar 1797-ci ilin martında Bakını tərk etdilər. Bir neçə ildən sonra (1804) Rusiyanın Azərbaycana növbəti və bu dəfə uzunmüddətli işğalçılıq yürüşü başladı.

### 216 il əvvəl...

**12 iyun 1806-cı ildə** Şuşa yaxınlığındakı Xanbağında Qarabağ xanı İbrahimxəlil xan Cavanşir ailə üzvləri və yaxınları ilə birlikdə rus hərbçiləri tərəfindən qətlə yetirilib. Mayor Lisaneviçin dəstəsi xanın çadırlarına basqın edərək ümumilikdə 17 nəfəri öldürüb. Ruslar bir il öncə (14 may 1805) Qarabağ xanı ilə bağlanan Kürəkçay müqaviləsinə belə "əməl" etdilər.

### 103 il əvvəl...

**14 iyun 1919-cu ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti ölkədə hərbi vəziyyət elan edib. Baş nazir Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Dövlət Müdafiə Komitəsinə (11 iyunda yaradılmışdı) Muğandakı bolşevik təmayüllü qiyamı və ermənilərin Qarabağ və Zəngəzurdakı silahlı çıxışlarını yatırmaq üçün fövqəladə səlahiyyətlər verilib.

### 102 il əvvəl...

**12 iyun 1920-ci ildə** Panama kanalının açılışı olub. Cənubi və Şimali Amerikanı ayıran kanalın tikintisi hələ XVI əsrdə gündəmə gəlmişdi. 1901-ci ildə Panamanı Kolumbiyanın əlindən alan ABŞ Britaniya ilə birlikdə kanalın tikintisinə başlayıb. 81,6 kilometr uzunluğunda olan kanal yalnız 1990-cı illərdə Panama dövlətinin nəzarətinə verildi.

### 88 il əvvəl...

**13 iyun 1934-cü ildə** Bakıda Azərbaycan yazıçılarının I qurultayı başlanıb. İyunun 17-dək davam edən qurultayda Azərbaycan Yazıçılar İttifaqı yaradılıb. O vaxtadək yazıçılar ayrı-ayrı ədəbi birliklərdə fəaliyyət göstərirdilər.

### 82 il əvvəl...

**15 iyun 1940-cı ildə** sovet qoşunları Baltikyanı ölkələrə daxil olub. Üç gün sürən anneksiya əməliyyatı Latviya, Litva və Estoniyanın SSRİ-yə birləşdirilməsi ilə nəticələndi. İşğal bir il öncə (23 avqust 1939) Almaniya ilə SSRİ arasında bağlanmış məxfi sazişə ("Molotov-Ribbentrop paktı") əsasən həyata keçirilmişdi.

### 76 il əvvəl...



**14 iyun 1946-cı ildə** Cənubi Azərbaycanda (Təbriz) Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi Azərbaycan Milli Hökuməti süqut edib. 1945-ci ilin 12 dekabrında (21 Azər hərəkatı) elan edilən sol təmayüllü Pişəvəri hökumətinə bölgədəki sovet qoşunları tərəfindən dəstək vardı. Lakin II Dünya müharibəsinin başa çatması ilə sovet qoşunları bölgəni tərk etdilər və Milli Hökumətə qarşı İran şah rejimi tərəfindən repressiyalar başlandı. Bir qrup məsləkdaşı ilə sovet Azərbaycanına mühacirət edən Pişəvəri burada müəmmalı avtomobil qəzasında (1947) həlak oldu.

### 29 il əvvəl...

**15 iyun 1993-cü ildə** Milli Məclisin iclasında təşkilati məsələyə baxılıb. Prezident Əbülfəz Elçibəyin təklifi ilə deputat, Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev parlamentin sədri seçilib. Parlamentdə çıxış edən Heydər Əliyev Azərbaycanı ağır böhrandan çıxarmaq üçün əlindən gələni edəcəyini bildirib. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqillik tarixində yeni dövrün başlanğıcı oldu. 1997-ci ildə (27 iyun) Milli Məclis 15 iyunu Milli Qurtuluş Günü elan etdi.

### 27 il əvvəl...

**14 iyun 1995-ci ildə** Şamil Basayevin başçılığı ilə çeçen dəstələri Stavropol diyarının Budyonnovsk şəhərinə hücum edərək yüzlərlə sakini girov götürüblər. Rusiya federal qüvvələri onları zərərsizləşdirməyə çalışsalar da, qırğının qarşısını almaq mümkün olmayıb. 150-dən çox adam həlak olub. Dəstəsi şəhəri tərk etməyə müvəffəq olan Ş.Basayev 2006-cı ildə öldürüldü.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1637
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641